Xalqın qəzeti!

# Xalq qəzeti

№ 145 (30839) 17 iyul 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## "Qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq"



səhifə ⇨ 5

# Azərbaycan – Türkmənistan qardaşlıq münasibətləri ortaq dəyərlər və ümumi hədəflərlə möhkəmlənir

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü

**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.**

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovu qarşıladı.

Dövlətimizin başçısı və Türkmənistan Xalq Məsləhətinin sədri birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

– Hörmətli Qurbanqulu Məlikquliyeviç.

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq.

Əziz qardaşım, bir daha xoş gəlmisiniz Azərbaycana.

*(ardı 2-ci səhifədə)*



## Dövlət – sahibkar əməkdaşlığı tərəqqi amilinə çevrilib

*İslahatlar və əlverişli biznes mühiti özəl bölmənin inkişafına təkan verib*




**Son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətində bir sıra layihələr həyata keçirilib. İş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim dövlətin diqqətdə saxladığı məsələdir.**

*(ardı 8-ci səhifədə)*

## Fransanın yeni hədəfi – Cənubi Qafqaz




səhifə ⇨ 6

## Sanksiya diplomatiyası: Avropa İttifaqı "qaz kartı"nı masaya qoyur




səhifə ⇨ 11

## Böyük İpək yolunun karvansara dayanacaqları



səhifə ⇨ 10

# Erməni Apostol Kilsəsi İŞİD-in filialıdırmı?

## *Yaxud qara cübbəlilərin Paşinyanın başını kəsmək çağırışı*



**Erməni kilsəsinin tarixən terrorun, qətlin və digər insanlıqdan uzaq əməllərin hazırlandığı radikal təmayüllü qatı ideoloji mərkəz olduğu məlumdur. Bu barədə Azərbaycan cəmiyyətində çox danışılıb və yazılıb. Hətta müxtəlif spesifik araşdırmalar aparılıb. Söylənilənlər fonunda önə çıxan bu fikirdir: Erməni kilsəsinin dinlə, yəni xristianlıqla heç bir əlaqəsi yoxdur.**

Erməni kilsəsi yalnız siyasi məqsədlərə köklənmiş, həmin məqsədlərə zidd hallara münasibətdə xüsusi amansızlığı ilə seçilən, öz hədəfləri naminə hər cür qəddarlığı törətməyə hazır olan quldur xislətli qurumdur. Hazırda Ermənistanda yaşanan proseslər bu təsisat barədə deyilənlərin tam həqiqət olduğunu bir daha təsdiqləyir. Əslində, erməni kilsəsi dindən uzaq mahiyyətini özü açıqlayır. Həm də başqa qüvvəyə qarşı yox, məhz Ermənistan liderinə, ölkənin baş nazirinə, seçilmiş birinci şəxsinə qarşı. Söhbət konkret nədən gedir, bu barədə bir qədər sonra. Hələlik isə...

*(ardı 7-ci səhifədə)*

## Terrordan azad Türkiyə



səhifə ⇨ 11

## "Əkinçi"nin nəşri mənəvi qəhrəmanlıq idi



səhifə ⇨ 9



## Keçmiş diplomatdan gələcək əleyhinə bəyanatlar

*Sülhü "fəlakət" kimi təqdim edən Oskanyan erməni cəmiyyətində çaşqınlıq yaradır*

səhifə ⇨ 7

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü





**(əvvəli 1-ci səhifədə)**

Türkmənistan Xalq Məsləhətinin sədri **Qurbanqulu Berdiməhəmmədov** çıxış edərək dedi:

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətlərinin üzvləri.

Əvvəlcə icazə verin, Azərbaycana səfərə dəvət etdiyinizə, göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə Sizə ürəkdən təşəkkür edim.

Mən, həmçinin Türkmənistan Prezidenti Zati-aliləri Sərdar Berdiməhəmmədovun səmimi salamlarını və xoş arzularını Sizə çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikasına bu səfərimin əsas məqsədi ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul verməkdir.

Ümumilikdə Türkmənistan-Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən onları üç sözlə ifadə edərdim: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq.

Biz möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazır olmağa əsaslanırıq.

Qanunauyğun haldır ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır. Bu, bizə ikitərəfli əməkdaşlığın bütün məsələləri üzrə düzgün və vaxtında qərarlar verməyə, əldə olunmuş razılaşmaların həyata keçirilməsini təmin etməyə imkan yaradır.

Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir.

Ən böyük beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, bir sıra regional strukturlarda uğurla və səmərəli əməkdaşlıq edirik. Bu baxımdan, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin 17-ci Zirvə görüşünün bu yaxınlarda Xankəndi şəhərində uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik etmək istərdim.

İqtisadi-ticari tərəfdaşlıq uğurla inkişaf edir, onun keyfiyyət və kəmiyyət göstəriciləri artır.

Mədəniyyət, elm, təhsil, şəxsi və insani səviyyələrdə ənənəvi əlaqələr genişlənir.

Dövlətlərarası münasibətlərin çox mühüm elementləri olan parlamentlərarası əlaqələrin, xalq diplomatiyasının əhəmiyyəti və rolu artır.

Əminəm ki, bu səfər Türkmənistan ilə Azərbaycanın bundan sonra da yaxınlaşması, əməkdaşlığın uzunmüddətli strategiyasının reallaşdırılması kontekstində razılaşdırılmış yanaşmaların işlənib hazırlanmasında mühüm amilə çevriləcək.

Hörmətli İlham Heydər oğlu, qardaş Azərbaycan torpağında hər zaman səmimi qarşılandığımıza görə Sizə bir daha təşəkkür edirəm.

Çox sağ olun.

*

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xahiş edirəm, mənim də salamlarımı hörmətli Prezident Sərdar Berdiməhəmmədova çatdırasınız.

# Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri "Sea Breeze"də



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da "Sea Breeze" istirahət mərkəzində olublar.**





"Sea Breeze"in təsisçisi Emin Ağalarov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə Xəzər dənizinin sahilində yerləşən kurort ərazisində həyata keçirilən və qarşıdakı dövr üçün nəzərdə tutulan layihələr barədə məlumat verib.

Qeyd olunub ki, bu istirahət mərkəzini paytaxtdan cəmi 30 dəqiqəlik məsafə ayırır. Müxtəlif formatda çoxsaylı daşınmaz əmlak obyektlərini bir araya gətirən "Sea Breeze" dünyada nadir layihə hesab olunur. Burada indiyədək 3 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilərək istifadəyə verilib, 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. Bundan başqa, ərazidə 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımada da yaradılacaq.

"Sea Breeze"də artıq 20 min sakin yaşayır. 2028-ci ilə qədər isə onların sayı 50 mindən çox olacaq. Layihə tam yekunlaşdırıldıqdan sonra burada 500 min sakin yaşayacaq.

"Sea Breeze"də sakinlər və qonaqlar üçün rahat şəraitin yaradılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili məqsədilə zəruri infrastruktur qurulub. Belə ki, burada istirahət zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb, məktəb, uşaq bağçası, xəstəxana tikilib, təxminən 10 milyon bitki və ağac əkilərək, yaşıllıq sahələrinin ümumi ərazisi 300 hektara çatdırılıb. Hazırda 500 hektar ərazini əhatə edən "Sea Breeze"in əsas layihələri sahilboyu yerləşir.

"Sea Breeze"in ərazisində 6560 nəfər işlə təmin olunub, gələcəkdə bu rəqəmin xeyli artırılması planlaşdırılır. Layihəyə yatırılan ümumi investisiyanın məbləği 3 milyard ABŞ dollarına çatıb. Növbəti beş ildə isə 10 milyard dollardan çox sərmayənin cəlb olunması planlaşdırılır.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan Xalq Məsləhəti sədrinin qızı Oquldjaxan Atabayeva ilə görüşüb





**İyulun 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva ilə görüşüb.**

# Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov birgə nahar ediblər



**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov birgə nahar ediblər.**

*AZƏRTAC*

# Milli Məclisin sədri Sahibə Qafarova Türkmənistan Xalq Məsləhətinin sədri ilə görüşüb



**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyəti iyulun 16-da Milli Məclisdə olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Xalq Məsləhətinin sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra geniş tərkibdə görüş keçirilib.

Milli Məclisin sədri Sahibə Qafarova bu səfərin ölkələrimiz arasında münasibətlərin inkişafı və möhkəmlənməsi işinə xidmət edəcəyinə inamını bildirib.

S.Qafarova qeyd edib ki, xalqlarımızın ortaq tarixi, mədəni, dil, din və ailə dəyərləri, oxşarlıqları ölkələrimiz arasında münasibətlərin təməlini təşkil edir. Müstəqillik qazandıqdan sonra məhz bu möhkəm təməl üzərində ölkələrimiz arasında geniş münasibətlər qurulub.

Bildirilib ki, dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində və dərinləşdirilməsində qarşılıqlı səfərlər və ali səviyyədə görüşlər müstəsna rol oynayır.

Qeyd olunub ki, Azərbaycan və Türkmənistan bir sıra beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər. Türkmənistan tərəfinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşəbbüslərinə daimi dəstəyi yüksək qiymətləndirilir.

Azərbaycan və Türkmənistan arasında iqtisadi sahədə də tərəfdaşlığın daha da möhkəmləndirilməsi üçün möhkəm təməl mövcuddur, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir. Bununla yanaşı, ölkələrimiz arasında humanitar əməkdaşlıq da xüsusi məna və xarakter kəsb edir.

Azərbaycan və Türkmənistan parlamentlərinin fəaliyyəti barədə danışan S.Qafarova deyib ki, qarşılıqlı səfərlər, parlament sədrlərinin və qanunvericilərin görüşləri bu əməkdaşlığa mühüm təkan verir. Parlamentlərarası əlaqələr üzrə dostluq qrupları birgə fəaliyyətləri və əməkdaşlıqları ilə parlamentlər arasında körpü rolunu oynayır.

Qeyd olunub ki, iki ölkənin parlamentarilərinin həm ikitərəfli formatda, həm də parlamentlərarası qurumlar çərçivəsində qarşılıqlı fəaliyyətinin genişləndirilməsi Azərbaycan və Türkmənistan arasında münasibətləri daha da intensivləşdirməyə kömək edəcək.

Ölkəmizə səfərindən məmnunluqla danışan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov bu səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş və aparılmış müzakirələr barədə yüksək təəssüratlarını bölüşüb.

Xalqlarımızın və dövlətlərimizin türk ailəsinin üzvləri kimi dünya siyasətinə verdiyi mühüm töhfələrdən danışan qonaq COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsinə və mühüm məsələlərin müzakirəsinə görə bir daha təbriklərini çatdırıb.

O, regional məsələlər, gender məsələləri, gənclər siyasəti, iqtisadi əlaqələr, hökumətlərarası komissiyanın fəaliyyəti, parlament diplomatiyası, parlamentlərarası dialoq və digər mövzular barəsində fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

# Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycana səfərə gəlib




**Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Azərbaycan Respublikasına səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin sədrini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Zəfər parkını ziyarət edib



**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Bakıdakı Zəfər parkını ziyarət edib.**

Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin sədri parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

Qeyd olundu ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

# Türkmənistan Xalq Məsləhətinin sədri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Fəxri xiyabanı ziyarət edib.**

Qurbanqulu Berdiməhəmmədov xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Türkmənistan Xalq Məsləhətinin sədri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

# Şeyxülislam Allahşükür Paşazadə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb



**İyulun 16-da Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb.**

Şeyxülislam Allahşükür Paşazadə qonağın Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, Ümummilli lider Heydər Əliyevin türkdilli dövlətlər arasında əməkdaşlığa verdiyi xüsusi önəmi xatırladaraq, bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Allahşükür Paşazadə Türkmənistanın müstəqillik əldə etdikdən sonra inkişaf yolunu seçdiyini, dövlətin uğurlarını məmnunluqla izlədiyini bildirərək, yaxın vaxtlarda Türkmənistana yenidən səfər etmək və Prezident Sərdar Berdiməhəmmədovla görüşmək arzusunda olduğunu deyib.

Dini sahədə əməkdaşlıq məsələlərinə toxunan Allahşükür Paşazadə Türkmənistanın müftisi ilə əvvəlki görüşünü xatırladıb. O, hər iki ölkənin dövlət başçılarının rəhbərliyi ilə Azərbaycan–Türkmənistan münasibətlərinin, o cümlədən dini-mənəvi sahədə əməkdaşlığın daha da genişləndiyini vurğulayıb.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxışında Prezident İlham Əliyevlə keçirdiyi görüşdən məmnunluğunu ifadə edib. Qurbanqulu Berdiməhəmmədov Azərbaycan ilə Türkmənistan arasında mövcud dini və mənəvi bağlılığın xalqlarımızın dostluq münasibətlərini daha da möhkəmləndirdiyini vurğulayıb, bu görüşün əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Görüşdə birgə təşəbbüslərin strateji əhəmiyyət daşıdığı vurğulanıb, dini-mənəvi əməkdaşlığın bu çərçivədə mühüm yer tutduğu və gələcəkdə bu istiqamətdə birgə səylərin davam etdirilməsinin vacibliyi qeyd olunub.

Türkmənistan Xalq Məsləhətinin sədri şeyxülislam Allahşükür Paşazadəni Türkmənistanda keçiriləcək məscid açılışı mərasiminə dəvət edib.

Sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Görüşün sonunda qonağın şərəfinə ziyafət verilib.

# Konstitusiyamızın 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilib

**İyulun 16-da Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş "Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar" mövzusunda beynəlxalq konfrans və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi keçirilib.**



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev konfransı açaraq Konstitusiyamızın 30 illik yubileyinə həsr olunan tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, burada səmərəli müzakirələrin aparılacağına əminliyini bildirib. O, xüsusi vurğulayıb ki, ümummilli liderin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunub, bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyulub.

Diqqətə çatdırılıb ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən və dərin düşünülmüş siyasəti, sərkərdəlik məharəti, əsgər və zabitlərimizin qəhrəmanlığı 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında tarixi zəfərləri təmin edib.

Sonra Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Baş prokuror Kamran Əliyev, Ədliyyə naziri Fərid Əhmədov, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov açılış nitqləri ilə çıxış ediblər.

Konfransın praktiki hissəsində Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya, Belarus Konstitusiya Məhkəməsinin sədri Pyotr Miklaşeviç, Serbiya Konstitusiya Məhkəməsinin sədri Snejana Markoviç, Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov, Özbəkistan Konstitusiya Məhkəməsinin sədri Mirzə-Uluqbek Abdusalomov, Moldova Konstitusiya Məhkəməsinin sədri Domnika Manole, İraq Federal Ali Məhkəməsinin sədri Munter İbrahim Hüseyn, Tacikistan Konstitusiya Məhkəməsinin sədri Abdulhafiz Aşurzoda, Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri Bertan Özerdağ, Qırğız Respublikası Konstitusiya Məhkəməsinin hakimi Çinarə Aydarbekova, Qazaxıstan Konstitusiya Məhkəməsinin hakimi Erkin Onqarbayev çıxış edərək, öz ölkələrində konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsi sahəsində mövcud təcrübələrini bölüşüblər.

Məruzələrdən sonra mövzular ətrafında müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

*

**Həmin gün Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi işə başlayıb. Konstitusiya Məhkəməsinin sədrliyi ilə keçirilən konqresdə Təşkilatın tamhüquqlu üzvləri olan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Konstitusiya məhkəmələrinin nümayəndələri iştirak ediblər. Eyni zamanda, Şimali Kiprin Ali Məhkəməsinin sədrinin və İraq Federal Ali Məhkəməsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətləri konqresə fəxri qonaq qismində qatılıblar.**

Konqresin əvvəlində Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək, bu əlamətdar tədbirin ölkəmizdə keçirilməsinin önəmini vurğulayıb.

Konqres çərçivəsində Türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi" qəbul edilib, həmçinin Azərbaycan Konstitusiya Məhkəməsi ilə Türkiyə Konstitusiya Məhkəməsi və İraq Federal Ali Məhkəməsi arasında Anlaşma memorandumları imzalanıb.

*XQ*

# Azərbaycan Respublikası Prezidentinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2015-ci il 13 yanvar tarixli 439 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" 2015-ci il 30 oktyabr tarixli 664 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139-1.1.8-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 15 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci hissədə "və kirayə müqavilələrindəki" sözləri ", kirayə müqavilələri, mənzilin verilməsinə dair sərəncamda və dövlət və ya ictimai mənzil fonduna daxil olan mənzilin xüsusi mülkiyyətə verilməsi barədə yerli dövlət hakimiyyəti orqanları, nazirliklər, dövlət komitələri, baş idarələr, müəssisələr, idarələr, təşkilatlar və ya müvafiq kooperativ təşkilatları, həmkarlar ittifaqı təşkilatları, başqa ictimai təşkilatlar ilə hüquq əldə edən arasında notariat qaydasında təsdiq edilmiş müqavilələrdəki" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda nəzərdə tutulmuş hüquqmüəyyənedici sənədlər üzrə hüquqların dövlət qeydiyyatına alınması həmin sənədlərin milli arxiv fondunda əsası olduğu halda həyata keçirilir.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı" üzrə:

1.3.1. 1-ci hissə üzrə:

1.3.1.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olduğu dövrdə Azərbaycan Respublikasının ərazisində yaşayış və bağ evləri, habelə onların altında olan və ya belə evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair qüvvədə olmuş qanunvericilikdə nəzərdə tutulan aşağıdakı sənədlər:";

1.3.1.2. 1.3-cü bənd ləğv edilsin;

1.3.1.3. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. yaşayış evinin (mənzilin) şəxsin mülkiyyətinə verilməsi barədə zəhmətkeş deputatları sovetləri və xalq deputatları sovetlərinin qərarları (həmin qərarlarda torpaq sahəsinin ölçüsü göstərilmədiyi halda, yaşayış evinin (mənzilin) altında olan torpaq sahəsi nəzərə alınmaqla);";

1.3.2. 2-ci hissə üzrə:

1.3.2.1. birinci abzas, 2.1-ci, 2.3 – 2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olduğu dövrdə, habelə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək olan dövrdə Azərbaycan Respublikasının ərazisində yaşayış və bağ evləri, eləcə də onların altında olan və ya belə evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair qüvvədə olmuş qanunvericilikdə nəzərdə tutulan aşağıdakı sənədlər:

2.1. şəhər və rayon xalq deputatları sovetləri tərəfindən verilmiş torpaq sahələrinə mülkiyyət, sahiblik, istifadə hüquqlarına dair dövlət aktları və torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamələr;";

"2.3. 2001-ci il yanvarın 1-dək inşa edilmiş yaşayış evlərinə və (və ya) onların yerləşdiyi torpaq sahələrinə, eləcə də yaşayış evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair həmin tarixədək verilmiş təsərrüfatbaşına kitablarından çıxarış və ya həmin çıxarışlar əsasında verilmiş arayışlar;

2.4. yaşayış və bağ evlərinə dair texniki inventarlaşdırma orqanları tərəfindən 2001-ci il yanvarın 1-dək tərtib olunmuş texniki pasportlar (müvafiq tikililərin yerləşdiyi həyətyanı torpaq sahələrinin ölçüsü göstərildiyi halda);

2.5. yaşayış evlərinin və bağ evlərinin tikintisi üçün həyətyanı torpaq sahələrinin verilməsi barədə kolxoz üzvlərinin ümumi yığıncağının və ya müvəkkillərinin yığıncağının qərarı, yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından çıxarış;";

1.3.2.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. sovxoz və ya dövlət orqanlarının tabeliyində olan digər kənd təsərrüfatı müəssisəsi rəhbərinin (direktor və s.) əmri, yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından çıxarış;";

1.3.2.3. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. yaşayış evinin tikintisi məqsədilə həyətyanı torpaq sahəsinin ayrılması barədə yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri tərəfindən 2001-ci il yanvarın 1-dək qəbul edilmiş qərarlar;";

1.3.2.4. aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. yaşayış evi tipli mənzillərin sökülərək yerində fərdi yaşayış evinin inşa olunması barədə yerli icra hakimiyyəti orqanları tərəfindən verilmiş qərarlar və fərdi yaşayış evinin yerli icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihəsi (layihədə torpaq sahəsinin ölçüsü göstərildikdə. Layihə olmadığı və ya həmin layihədə torpağın ölçüsü göstərilmədiyi hallarda yaşayış evi və onun altında olan torpaq sahəsi əsas götürülməklə).".

2. "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli 664 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1136 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998; 2025, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1.8-ci yarımbəndə ikinci halda "faizindən" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahəsinin qiymətinin 90 faizindən)" sözləri əlavə edilsin.

2. 3.1.10-cu yarımbəndin birinci cümləsinə "faizindən" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahəsinin alınması məqsədilə verilən kredit məbləği üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 75 faizindən)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2025-ci il**

# Türkmənistan Xalq Məsləhətinin sədrinin qızı Oquldjaxan Atabayeva Heydər Əliyev Mərkəzində





**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Heydər Əliyev Mərkəzində olublar.**

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Oquldjaxan Atabayeva əvvəlcə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə -1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan qonağa bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Musiqi alətləri: Birlik və müxtəliflik" sərgisi ilə tanışlıqdan sonra Oquldjaxan Atabayeva "Kukla İncəsənətdə" və Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

Daha sonra qonaq tanınmış heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri", rəssam və heykəltaraş Luiz de Souzanın "Əbədiyyətin ifadəsi" sərgiləri ilə tanış olub.

Mərkəzlə tanışlıqdan sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva arasında görüş keçirilib.

Görüşdən sonra Mərkəzin direktoru Anar Ələkbərov qonağa xatirə hədiyyəsi təqdim edib.

Oquldjaxan Atabayeva Mərkəzdən xoş təəssüratla ayrılıb.

# Oquldjaxan Atabayeva Bakı Kitab Mərkəzində və Milli Xalça Muzeyində



**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Bakı Kitab Mərkəzində olublar. Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva qonağa mərkəz haqqında məlumat verib.**

Bildirilib ki, Bakı Kitab Mərkəzi 2018-ci ildən rəsmi olaraq fəaliyyət göstərir. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yaradılmış Mərkəz kitab satışına yeni yanaşma gətirərək, Azərbaycan, rus, türk, ingilis və digər dillərdə müxtəlif janrlarda kitablar təqdim edir. Sahəsi 2500 kvadratmetr olan Mərkəzin 1-ci və 2-ci mərtəbələrində Heydər Əliyev Fondunun nəşrləri nümayiş olunur. Birinci mərtəbədə, həmçinin "I Love Baku" brendinin, "Azərpoçt" MMC-nin məhsulları, Azərbaycan dilində və xarici dillərdə dünya bestsellerləri, klassik ədəbiyyat, qeyri-bədii əsərlər, incəsənət albomları, turist bələdçiləri, dəftərxana malları və hədiyyələr mövcuddur. Kitab satışına əlavə olaraq birinci mərtəbədə "Coffeemood" adlı kafe fəaliyyət göstərir.

Qeyd edilib ki, Mərkəzin ikinci mərtəbəsində oxu zalı, zəif görmə qabiliyyəti olan insanlar üçün xüsusi bölmə, uşaqlar üçün guşə, müxtəlif tədbirlərin keçirilməsi və elmi fəaliyyətlərlə məşğul olanlar üçün nəzərdə tutulmuş sahələr mövcuddur.

Bakı Kitab Mərkəzində kitabsevərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün əlavə imkanlar da var. Burada mütəmadi olaraq müxtəlif kitab təqdimatları, mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, imza saatları, uşaqlar üçün "Oxu" saatları və yaradıcılıq dərnəkləri, beynəlxalq təşkilatlar, eləcə də xarici səfirliklərlə birgə təşkil olunan tədbirlər keçirilir. Müxtəlif yerlərdə quraşdırılmış monitorlarda yeni kitablar haqqında məlumatlar təqdim olunur. Sensor ekranlar vasitəsilə Mərkəzdə mövcud olan bütün kitablar haqqında məlumat əldə etmək mümkündür.

Sonda Bakı Kitab Mərkəzi adından qonağa xatirə hədiyyəsi təqdim olunub.

*



**Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olublar.**



Muzeyin direktoru Əminə Məlikova qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası istifadə olunan materialların, toxuma texnikalarının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, muzeyin kolleksiyasının "qızıl fondu"nu Azərbaycanın 7 regionunun – Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbrizin xovlu və xovsuz xalça nümunələri təşkil edir. Bununla yanaşı, ekspozisiyada digər dekorativ-tətbiqi sənət nümunələri də nümayiş olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd olunub ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyləri sayəsində milli xalçaçılıq sənəti 2010-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Qonaq muzeydə xalçatoxuma prosesini həmçinin də izləyib.

Sonra Oquldjaxan Atabayevaya Azərbaycanın qədim kəlağayı sənəti haqqında məlumat verilib. Qonaq kəlağayının hazırlanma üsulu, onun üzərindəki ənənəvi naxışların daşıdığı mənalar barədə ətraflı məlumatlandırılıb.

Sonda qonağa Azərbaycan Milli Xalça Muzeyinin 55 illiyinə həsr olunmuş kitab hədiyyə olunub.

Oquldjaxan Atabayeva öz növbəsində Milli Xalça Muzeyinə xalça hədiyyə edib.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, ekspozisiya zallarının qeyri-adi quruluşu Oquldjaxan Atabayevada xoş təəssürat yaradıb.

***AZƏRTAC***

**Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 16 iyul 2025-ci il.**

# "Qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq"

## *Türkmən xalqının lideri ölkələrimiz arasında münasibətləri belə xarakterizə etdi*

**Azərbaycan Respublikasına bu səfərimin əsas məqsədi ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul verməkdir... Biz möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazır olmağa əsaslanırıq.**

**Qurbanqulu BERDİMƏHƏMMƏDOV**
**Türkmənistan Xalq Məsləhətinin sədri**
**Bakı, 16 iyul 2025-ci il.**



**Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşünü, aparılan müzakirələri, qarşılıqlı inam və etimada söykənən fikir mübadilələrini Türk dünyasının daha aydın sabahına və birlikdə nail olacağımız möhtəşəm tərəqqiyə doğru atılmış addım kimi qiymətləndiririk. Əslində Azərbaycanın coğrafi baxımdan yaxın qonşuları, xüsusən, türkdilli ölkələr və müsəlman dövlətləri ilə hərtərəfli əməkdaşlıqda maraqlı olması yeni məsələ deyil. Bu prinsip ulu öndər Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət kursumuzun mühüm tərkib hissələrindən biridir.**

Müasir dünyanın ən uğurlu və sınaqlardan çıxmış siyasətçilərindən olan Prezident İlham Əliyevin türk dünyası ilə əməkdaşlığın genişləndirilməsi üçün atdığı addımlar isə artıq təkcə dost və qardaş ölkələrdə deyil, dünyanın hər yerində etiraf edilir, heyranlıqla qarşılanır. Cənab Prezidentin rəsmi Aşqabadın ali nümayəndələrindən olan Qurbanqulu Berdiməhəmmədovla görüşdə səsləndirdiyi fikirlər də dilə gətirdiyimiz arqumentlərin təsdiqi kimi səslənirdi.

Dövlət başçımız əmin olduğunu söylədi ki, bu səfər Türkmənistan – Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır.

Qonağın fikrincə isə Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir: "Ən böyük beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, bir sıra regional strukturlarda uğurla və səmərəli əməkdaşlıq edirik. Bu baxımdan, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin 17-ci Zirvə görüşünün bu yaxınlarda Xankəndi şəhərində uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik etmək istərdim... İqtisadi-ticari tərəfdaşlıq uğurla inkişaf edir, onun keyfiyyət və kəmiyyət göstəriciləri artır".

Bu arqumentləri fikir verdikcə ulu öndər Heydər Əliyevin 25 il bundan əvvəl söylədiyi proqnozların günün reallıqlarına çevrildiyini düşünür və məmnun oluruq. Ümummilli liderimiz 2000-ci il yanvarın 7-də Türkmənistanın ölkəmizə göndərdiyi səfir Murad Çarıyevin etimadnaməsini qəbul edərkən demişdi ki, müasir mərhələdə bizi Xəzər dənizinin sərvətlərindən birgə istifadə olunması sahəsində işin böyük perspektivi də birləşdirir: "Xüsusilə mühümdür ki, keçən ilin noyabrında İstanbulda biz – Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə Azərbaycandan və Gürcüstandan keçməklə Türkmənistandan Türkiyəyə Transxəzər qaz kəmərinin çəkilməsi haqqında saziş imzaladıq. Bu, böyük layihədir və biz onu birlikdə keçirməli olacağıq. Şübhəsiz ki, bu, bizim əməkdaşlığımızın gələcək inkişafı üçün daha böyük imkanlar yaradacaqdır". Həmin "böyük imkanlar" isə artıq dünya ictimaiyyətinin gözü önündədir.

Dövlət başçımızın cənab Qurbanqulu Berdiməhəmmədov ilə görüşündə də siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərin olduğu vurğulandı və Prezident əmin olduğunu söylədi ki, gələcək əməkdaşlıqla bağlı aparılacaq fikir mübadiləsi uğurlarımızın növbəti stimulu olacaq.

Cənab Qurbanqulu Berdiməhəmmədov isə Türkmənistan – Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən olduqca dəqiq və orijinal fikir səsləndirdi : "Onları üç sözlə ifadə edərdim: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq".

Xatırladaq ki, Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasındakı ikitərəfli əlaqələrin qarşılıqlı inam və etmada söykənməsinin təməlində bu iki xalqın eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik olması dayanır. Bundan başqa bu xalqları dil və din eyniliyi də birləşdirir. Mütəxəssislərin fikrincə, Orta Asiya xalqları içərisində milli mənsubiyyəti baxımından azərbaycanlılara ən yaxın olan xalqlardan biri məhz türkmənlər hesab olunur. Hər iki xalq türklərin oğuz boyundandır.

Bizi son əsrlərdə yaşadığımız tarix də bir-birimizə yaxınlaşdırır. Hər iki ölkə keçmiş SSRİ-nin tərkibində müttəfiq respublika olmuşdur. Elə həmin dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşmışdır. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra isə bu münasibətlər daha da inkişaf etməyə başlamışdır.

Bildirilir ki, ölkələrimiz arasındakı diplomatik əlaqələr 1992-ci il iyun ayının 9-da qurulmuşdur. Mərhum Saparmurat Niyazovun hakimiyyəti dövründə Aşqabad –Bakı münasibətlərində bir qədər anlaşılmazlıq var idi. Xüsusən, Xəzərin hüquqi statusu və milli sektorların sərhədləri ilə bağlı Türkmənistanın nümayiş etdirdiyi mövqe Xəzər bölgəsi ölkələri arasında narahatçılığa səbəb olmuşdu. Ancaq 1993-cü ili dekabrın 23-24-də Aşqabadda keçirilən MDB ölkələri dövlət başçılarının Zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevlə Türkmənistan Prezidenti Saparmurad Niyazov arasında keçirilmiş görüşdə iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi, maraq doğuran regional və beynəlxalq məsələlər barəsində fikir mübadiləsi aparılmış və əməkdaşlığın indiki səviyyəyə qaldırılması üçün ilkin addımlar atılmışdı.

Həmin addımların nəticəsi idi ki, Türkmənistan Prezidenti Saparmurat Niyazov 1996-cı il martın 18-19-da Azərbaycanda rəsmi səfərdə olmuş, iki ölkə arasında bir sıra sənədlər imzalanmışdı. Səfər çərçivəsində Azərbaycan Respublikası və Türkmənistan arasında dostluq və əməkdaslıq haqqında müqavilə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Türkmənistan Prezidenti Saparmurad Niyazovun Bakı Bəyannaməsi, təhsil sahəsində əməkdaslıq haqqında saziş, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Türkmənistan Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında protokol, konsulluq konvensiyası, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Türkmənistan Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş, dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında saziş və digər sənədlər imzalanmışdır.

Rəsmi mənbələrdə qeyd edilir ki, 2008-ci il mayın 19-da Türkmənistanın yeni prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycana rəsmi səfərə gəlib. Prezidentlərin təkbətək görüşündə Azərbaycan – Türkmənistan münasibətlərinin inkişaf perspektivləri və bu prosesin fəallaşmasında dövlət başçılarının görüşlərinin rolu vurğulanıb. Dövlət başçılarının Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfərinə dair çıxış etdikləri birgə bəyanatlarda olduqca mühüm məqamlar var idi.

Azərbaycan Prezidenti öz bəyanatında demişdir: "...Bu gün müzakirə etdiyimiz mövzulardan biri də Xəzər problemi idi. Biz Xəzəryanı ölkələrin dövlət başçılarının Tehran sammitinin yekunlarını, eləcə də Xəzərdə əməkdaşlığın inkişaf etdirilməsinin gələcək yollarını razılıq hissi ilə qeyd etdik. Əminik ki, Türkmənistanın və Azərbaycanın bu istiqamətdə səmərəli qarşılıqlı fəaliyyəti həmin məsələnin hərtərəfli tənzimlənməsinə kömək edəcəkdir...".

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov isə başqa məqamdan söz açırdı: "...İlk növbədə, bütün dünyada enerji dövlətləri statusuna malik olan hər iki ölkənin iqtisadiyyatı üçün baza əhəmiyyəti kəsb edən yanacaq-energetika sektorunda tərəfdaşlıqdan söhbət gedir. Möhtərəm İlham Heydər oğlu ilə bugünkü danışıqların gedişində biz bu mövzuya xüsusi diqqət yetirdik. Bizim ümumi fikrimiz belədir ki, məhz bu sahə gələcək dövlətlərarası tərəfdaşlığın strateji istiqamətinə çevriləcəkdir...".

...Bu, həmin Qurbanqulu Berdiməhəmmədovdur ki, dünən Bakıda Azərbaycan paytaxtının ən nüfuzlu qonaqlarından biri kimi qarşılanırdı. Bu, həmin "dövlətlərarası tərəfdaşlığın strateji istiqaməti"dir ki, Bakı ilə Aşqabadın hər ikisinin maraqlarına yüksək səviyyədə cavab verir və tərəflərin hər ikisi gündən-günə yeni uğurlara imza atırlar.

...Tanrı Türkü qorusun! Türk dövlətlərinin söz və əməl birliyi daimi olsun!

***İttifaq MİRZƏBƏYLİ***

# Türkmənistanla ikitərəfli əməkdaşlıq regional tərəfdaşlığa yönəlib

**Azərbaycan ilə Türkmənistan arasında iqtisadi əməkdaşlıq son illər mühüm inkişaf mərhələsinə qədəm qoyub. Xəzər dənizi sahillərində yerləşən bu dost və qardaş ölkələr ortaq tarixi köklərə, mədəni yaxınlığa və enerji resurslarının idarə olunması üzrə birgə maraqlara malikdir. Regional və beynəlxalq geosiyasi reallıqlar, xüsusilə də Orta Dəhlizin aktuallığı Bakı və Aşqabad arasında iqtisadi münasibətlərin dərinləşməsinə əlverişli zəmin yaradır.**



Hər iki ölkə arasında, ilk növbədə, enerji sahəsində əməkdaşlıq xüsusi önəm daşıyır. Xəzərin enerji ehtiyatlarından səmərəli istifadəyə dair qarşılıqlı anlaşma həm bu ölkələrin maraqlarına, həm də Avropanın enerji təhlükəsizliyinə önəmli töhfə verir. 2021-ci ildə imzalanan "Dostluq" yatağına dair Anlaşma Memorandumu sözügedən sahədə tarixi dönüş nöqtəsi kimi dəyərləndirilir. Uzun illər mübahisəli statusda olan bu yatağın birgə işlənməsi Azərbaycan və Türkmənistanın enerji əməkdaşlığında yeni mərhələnin əsası kimi diqqət çəkir.

Nəqliyyat – logistika sektorunda da tərəflər arasında sinerji getdikcə artır. Azərbaycan Orta Dəhlizin əsas iştirakçısı və nəqliyyat mərkəzi kimi Türkmənistanın tranzit imkanlarını Avropa bazarlarına çıxarmaqda mühüm rol oynayır. Türkmənbaşı – Bakı limanları arasında bərə daşımalarının intensivləşdirilməsi, dəmir yolu infrastrukturunun əlaqələndirilməsi və multimodal daşımaların təşkili bu əməkdaşlığın praktik nəticələridir.

Qeyd edək ki, hazırda dünya üzrə enerji, ticarət və nəqliyyat sistemlərində baş verən dəyişikliklər beynəlxalq logistik dəhlizlərin əhəmiyyətini daha da artırıb. Bu kontekstdə Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu artıq Avropa ilə Asiya arasında strateji bir körpü rolunu oynayır. Azərbaycanın coğrafi mövqeyi isə bu dəhlizin əsas halqalarından biri olmasını təmin edir. Bu səbəbdən ölkəmizin Orta Dəhlizin inkişafı istiqamətində atdığı addımlar beynəlxalq maliyyə institutlarının diqqət mərkəzindədir.

Orta Dəhliz Çin, Qazaxıstan, Türkmənistan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa istiqamətini əhatə edən multimodal nəqliyyat yoludur. Bu dəhliz Şimal və Cənub marşrutları ilə müqayisədə daha qısa və təhlükəsiz bir marşrut təklif edir. Regional və qlobal ticarət axınlarını sürətləndirməklə yanaşı, Orta Dəhliz ölkələrin iqtisadi inteqrasiyasını və logistika potensialını da artırır.

Ticarət dövriyyəsinin artırılması istiqamətində də mühüm addımlar atılır. Son illərdə iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə olunur. Əsas məhsul qruplarına neft – kimya məhsulları, tekstil, tikinti materialları və kənd təsərrüfatı məhsulları daxildir. Hökumətlərarası komissiyalar çərçivəsində iş adamlarının görüşləri, sərgilər və biznes forumlar təşkil edilir. Bu platformalar qarşılıqlı investisiyaların təşviqinə və yeni layihələrin reallaşmasına şərait yaradır.

Türkmənistan Azərbaycanın nəqliyyat, energetika və tikinti sahələrindəki təcrübəsindən faydalanır. Eyni zamanda, Azərbaycan bu dost ölkənin pambıqçılıq, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunması üzrə təcrübəsini yüksək qiymətləndirir. İki ölkə arasında elm, təhsil və innovasiya sahələrində də əməkdaşlıq üçün yeni imkanlar formalaşmaqdadır.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və Azərbaycan Prezidenti İlham Əliyevin qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin gücləndirilməsində əhəmiyyətli rol oynayır. Prezidentlər səviyyəsində aparılan müzakirələr nəticəsində imzalanan sənədlər təkcə iqtisadi deyil, həm də siyasi və humanitar əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Bütün bu faktlar onu göstərir ki, Azərbaycan – Türkmənistan iqtisadi əməkdaşlığı təkcə iki ölkənin deyil, bütövlükdə regionun inkişafına töhfə verən strateji tərəfdaşlığa çevrilməkdədir. Xəzər hövzəsində sabitlik, qarşılıqlı faydalı əməkdaşlıq və müasir çağırışlara uyğun çevik iqtisadi model qurmaq baxımından bu münasibətlər nümunəvi xarakter daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 16-da Bakıda Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşündə də xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirdiyini və müstəqillik dövründə bu əlaqələrin daha da gücləndiyini vurğulayaraq ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Q.Berdiməhəmmədov isə hər iki ölkənin doğmalığının əsasında möhkəm tarixi bünövrə və qohumluq, bir-birinə qarşılıqlı ehtiyacının olması kimi anlayışlar dayandığını bildirərək əlavə edib ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlıq məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır.

Onu da qeyd edək , bu gün Azərbaycan Avrasiyanın mühüm nəqliyyat – logistika mərkəzlərindən biri kimi tanınır. Ölkəmizlə Türkmənistan arasında nəqliyyat sektorunda əməkdaşlığın uğurla genişləndirilməsi, bu sahədə mühüm uğurlar əldə edilməsi də vurğulanan fikrin bariz ifadəsidir. Bu sahədə limanlar vasitəsilə yükdaşımalar həyata keçirilir. Dünyada enerjiyə artan ehtiyac mövcud potensialdan daha geniş istifadəni labüd edir. İqlim dəyişikliyi və alternativ enerji sahəsində əməkdaşlıq istiqamətində mühüm layihələr gerçəkləşdirilir. Xüsusilə iqlim dəyişikliyi ilə mübarizədə ortaq maraqlar iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsini şərtləndirir.

Türkmənistanın Azərbaycandakı səfiri Qurbanmammet Elyasov ölkəsinin Azərbaycanla əməkdaşlıq siyasətinin əsas istiqamətlərindən bəhs edərkən deyib: "Bu prinsiplərdən biri də Azərbaycanla əlaqələrimizin ardıcıl olaraq möhkəmləndirilməsidir. Ölkələrimiz arasında münasibətlər siyasi, iqtisadi, nəqliyyat və logistika, neft və qaz sahələri üzrə yüksələn xətlə inkişaf etməkdədir. Azərbaycanın beynəlxalq platformalarda Türkmənistanın təşəbbüslərini dəstəkləməsi faktını yüksək qiymətləndiririk. Azərbaycan bizim üçün qardaş ölkədir, qardaş xalqdır və biz bütün mövcud potensialdan istifadə edərək əlaqələrimizi ardıcıl olaraq gücləndirəcəyik".

Q.Elyasovun sözlərinə əsasən, Türkmənistan və Azərbaycanın müxtəlif sahələrdə əlaqələrinin gücləndirilməsində Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi xidmətləri böyükdür. Nəqliyyat sahəsində əməkdaşlıq həm ölkələrimiz, həm də qonşularımız üçün böyük perspektivlər açır. Bu məqamda hər iki ölkənin limanlarının daha böyük imkanlarını qeyd etmək vacibdir. Çünki Türkmənistanın Xəzər dənizindəki qonşularla müqayisədə yüklərin daşınması üçün böyük potensialı var. Bu isə Türkmənistanın həm Çindən Avropaya, həm də əks istiqamətdə tranzit yük axınının artırılması ilə bağlı mövcud çağırışlara hazır olduğunu göstərir.

Bu ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi və dövlətlərarası münasibətlərin perspektivləri, o cümlədən onların inkişaf yolları ilə bağlı daim konstruktiv fikir mübadiləsi aparılır. Hazırda Xəzər dənizinin dibi ilə Türkmənistan və Azərbaycan arasında fiber-optik kabelin çəkilməsi üçün texniki – iqtisadi əsaslandırmanın yaradılması üzrə ekspertlər səviyyəsində fikir mübadiləsi gerçəkləşdirilir.

Sonda qeyd edək ki, Azərbaycanın Türkmənistanla qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində hər iki ölkənin rəhbərlərinin siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, keçirilən görüşlərin önəmli rolu var. Olkələrimiz arasında əməkdaşlığın güclənməsi fonunda iqtisadi – ticarət əlaqələr də genişlənir. Hər iki dövlətin ortaq fəaliyyəti və iqtisadi sahədə tərəfdaşlığı regionun inkişafına mühüm töhfə verir.

***V.BAYRAMOV***
***XQ***

# Fransanın yeni hədəfi – Cənubi Qafqaz

## *Bu ölkənin diplomatiyasında Azərbaycana ayrılan yer*




**2025-ci ilin iyulunda Fransanın Müdafiə Nazirliyi tərəfindən yayımlanan Milli Strateji Baxış sənədi bütün Qərbin təhlükəsizlik konturlarını sərt, bəzən isə təxribatçı tonlarla yenidən cızdı. Sənəd Fransa və Avropanın təhlükəsizliyinə yönəlmiş təhdidlərə dair ən sərt ritorikaya malik strateji sənədlərdən biri kimi tarixə düşür. Məhz bu kontekstdə Cənubi Qafqaz, o cümlədən Azərbaycan birbaşa hədəfə çevrilmiş görünür.**

Sənədə əsasən, Rusiya artıq hipotetik risk deyil, birbaşa və real təhlükə statusundadır. Ukrayna müharibəsi, nüvə ritorikası və Avropada sabitliyi pozmağa yönəlmiş siyasi-hərbi davranışlar Fransanın təhlükəsizlik doktrinasında Rusiyanı açıq-aşkar düşmən obrazında yerləşdirib. Bununla yanaşı, ABŞ-ın Asiya-Sakit okean bölgəsinə yönəlməsi və Çinə qarşı strateji çəkindirmə siyasəti Avropanın öz təhlükəsizliyini daha çox özü təmin etməli olduğu fikrini doğurur. Parisə görə, ABŞ artıq qitənin hərbi təminatçısı rolunu əvvəlki kimi sabit şəkildə davam etdirməyəcək və bu da Avropa üçün strateji qeyri-müəyyənliklər yaradır.

Diqqətçəkən məqam budur ki, sənəddə gözlənilməz şəkildə Azərbaycanın adı çəkilir. "Bakı Təşəbbüs Qrupu" adlı platforma Fransa tərəfindən dövlət dəstəyi ilə fəaliyyət göstərən informasiya aləti kimi təqdim edilir və açıq şəkildə dezinformasiya kampaniyasında iştirakda ittiham olunur. Belə bir iddianın Fransa kimi demokratiya və ifadə azadlığını əsas dəyər kimi təbliğ edən bir ölkənin rəsmi sənədində yer alması bir tərəfdən ikili standartların göstəricisidirsə, digər tərəfdən bu, Cənubi Qafqaz regionuna yönəlmiş daha dərin bir geosiyasi baxışın siqnalıdır. Əsas məqam Cənubi Qafqazda gedən güc balansı dəyişikliklərinə Parisin verdiyi siyasi reaksiyadır. Azərbaycan regionda münaqişədən sonrakı normallaşma proseslərini irəli aparmağa çalışdığı, enerji və nəqliyyat dəhlizləri üzərində strateji nəzarət imkanlarını genişləndirdiyi bir dövrdə Qərbin bəzi dairələrində onun rolu bəzən sual altına alınır, bəzən isə açıq-aşkar tənqid edilir. Sənəddə Azərbaycanın belə bir kontekstdə qeyd olunması, əslində, Bakının artan beynəlxalq nüfuzuna və informasiya sahəsindəki təşəbbüskar mövqeyinə verilmiş reaksiya kimi oxunmalıdır.

*

Fransanın Milli Strateji Baxış sənədində Cənubi Qafqaz "bircə böhranın yox, bir neçə paralel və bir-birini qidalandıran böhranların toqquşduğu, qarşılıqlı təsirlərlə mürəkkəbləşən geopolitik düyün" kimi təqdim olunur. Təsvirin müəyyən reallıq payı var. Bəli, region son üç onillikdə münaqişə, işğal, soyqırımı, kütləvi qaçqın axınları və silahlı toqquşmalarla yadda qalıb. Lakin Fransa sənəddə bu qeyri-sabitliyin yaranma və davametmə səbəblərinə gəldikdə, təəccüblü şəkildə öz məsuliyyətini ya susqunluqla keçir, ya da onu yalnız region ölkələrinin üzərinə yükləyir.

Azərbaycan 2020-ci ildən sonra beynəlxalq hüquqa tam uyğun şəkildə ərazi bütövlüyünü bərpa etmiş, bunun ardınca regionda dayanıqlı sülhə nail olmaq üçün diplomatik, siyasi və texniki mexanizmləri işə salmış bir dövlətdir. Bakı bu prosesdə hər zaman açıq dialoq, nəqliyyat-kommunikasiya açılımları və qarşılıqlı razılaşma əsasında normallaşma yolunu seçib. Lakin bütün bu konstruktiv yanaşmaya baxmayaraq, Fransa son illərdə təkcə obyektiv vasitəçi obrazından imtina etməyib, hətta hadisələrin birbaşa iştirakçısı kimi özünü təqdim etməyə başlayıb.

Bir tərəfdən, Fransa Ermənistanla hərbi-texniki əməkdaşlıq müqavilələri imzalayır, ona hücum xarakterli silahlar ötürür, ordunun modernləşdirilməsi üçün texnologiya dəstəyi göstərir. Digər tərəfdən, Fransa parlamentində qəbul olunan bəyanatlar, qətnamələr və siyasi çıxışlar Azərbaycanı sanki ittiham olunan tərəf kimi hədəfə alır. Üstəlik, Fransa bəzən Azərbaycanın daxili siyasi müstəvisinə toxunan, insan hüquqları, söz azadlığı kimi mövzulardan vasitə kimi istifadə edərək daxili proseslərə təsir göstərməyə çalışan ikili yanaşma sərgiləyir. Halbuki bu mövzularda özünün keçmiş müstəmləkə ərazilərindəki siyasəti və indiki islamofob yanaşmaları ilə ciddi sual altındadır. Azərbaycanın daxili siyasi reallıqlarını anlamadan və ya onları yerli kontekstdə qiymətləndirmədən irəli sürülən bu cür məqsədyönlü təzyiqlər isə beynəlxalq hüququn və qarşılıqlı razılaşma vasitəçilik prinsipinə ziddir.

Reallıqlar fonunda haqlı bir sual doğur: əgər Azərbaycan beynəlxalq hüququn bərqərar olmasına, ərazi bütövlüyünün tanınmasına və regionda sabitliyin təmininə yönəlmiş addımlar atırsa, Fransa hansı maraqlar naminə bu prosesi pozmağa çalışan mövqe nümayiş etdirir? Yaxud başqa cür soruşsaq: bu regionda kim sabitlik istəyir, kim isə xaosun davam etməsində maraqlıdır? Cavab, əslində, Fransanın özü tərəfindən sənəddə verilir – qeyri-sabitlik, qarşılıqlı təhdidlər və artan geosiyasi gərginlik. Lakin bu gərginliyin bir səbəbi də elə Fransanın özü ola bilər. Böyük güc iddiası ilə Cənubi Qafqazda rol almaq istəyi, bir zamanlar Şimali Afrikada, Orta Şərqdə tət-



biq etdiyi siyasətin bu dəfə Qafqaza köçürülməsi təəssüratı yaradır. Lakin Qafqazın tarixi yaddaşı, müqavimət ruhu və siyasi realizmi fərqlidir – burada balanssız oyunların davam etməsinə icazə verilməyəcək.

*

Fransanın 2025-ci il Milli Strateji Baxış sənədində "Bakı Təşəbbüs Qrupu" adının xüsusi qeyd olunması, əslində, informasiya təhlükəsizliyi sahəsində baş verən yeni mərhələnin göstəricisidir. Fransa bu təşəbbüsü dövlət dəstəyi ilə fəaliyyət göstərən, dezinformasiya kampaniyalarında iştirak edən bir platforma kimi təqdim edir. Lakin bu ittihamın arxasında daha dərinə getdikcə, geosiyasi media üstünlüyü uğrunda gedən mübarizənin daha kəskin fazaya keçməsi görünür.

Əgər "Bakı Təşəbbüs Qrupu" həqiqətən də Azərbaycanın media məkanında Fransa və onun tərəfdaşlarının qlobal ictimai rəyə təlqin etdiyi birtərəfli, köhnəlmiş təsvirlərə qarşı alternativ baxış bucağı yaradırsa, bu informasiya balansı deməkdir. Belə olan halda, təşəbbüs əslində dezinformasiya deyil, informasiya plüralizminin bir parçasıdır. Fransa bu balanslı yanaşmanı "təhlükə" kimi təqdim etməklə, özünün informasiya məkanını dominant saxlamaq istəyindən imtina etmədiyini sübut edir. Buradakı əsas məsələ təkcə media rəqabəti deyil. Məsələ artıq ideoloji və strateji hegemoniyanın informasiya üzərində qurulduğu yeni dövrün təzahürüdür. Fransa üçün informasiya təsir və idarəetmə vasitəsidir. Siyasi arxitekturanın qurulduğu sahələrdən biri informasiya müstəvisidir və bu müstəvi itirilərsə, digər sahələrdə də üstünlük əl dəyişə bilər. Buna görə də Fransa bu məkanda alternativlərin yaranmasını təhlükə kimi görür və onları susdurmağa, marjinallaşdırmağa çalışır.

Eyni zamanda, bu vəziyyət daha geniş tendensiyanın bir hissəsidir – Qlobal Cənubun səsinin güclənməsi. Bir zamanlar yalnız Qərbin dominant media şəbəkələri vasitəsilə formalaşan qlobal ictimai rəy artıq çoxsaylı regional platformaların, jurnalist təşəbbüslərinin, qeyri-Qərb təhlilçilərin iştirakı ilə daha rəngarəng və çoxsəsli hala gəlməkdədir. Azərbaycanın informasiya müstəqilliyi uğrunda apardığı mübarizə yeni dünya düzənində alternativ səsin tanınmasını təmin edir.

*

Azərbaycanın belə bir kontekstdə hədəfə alınması, əslində, Qərbin keçmiş müstəmləkəçiliyə söykənən baxış bucağının hələ də dəyişmədiyini, yeni dövrün reallıqları ilə uzlaşmaqda çətinlik çəkdiyini göstərir. Baxış özünü informasiya üzərində nəzarət, humanitar müdaxilə adı altında suverenliklərə müdaxilə və regional aktorların yüksəlişini ləngitmək cəhdlərində göstərir.

Fransa qarşısında bu gün ciddi bir seçim dayanır: ya o, Avropa üçün tələb etdiyi strateji suverenliyi, digərlərinin suverenliyinə də hörmət prinsipi üzərində quracaq, ya da selektiv müdaxilə ilə regionda yeni gərginlik ocaqları yaradacaq.

Azərbaycan üçün isə bu çağırışlara cavab açıq və prinsipialdır: ərazi suverenliyini qorumaqla yanaşı, informasiya müstəqilliyini də təmin etmək, qlobal rəqabət şərtlərində öz siyasi kimliyini və maraqlarını qorumağın əsas yoludur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Erməni baş nazirin "Avropa turnesi"nin müəmmaları

## *Yaxud "kollektiv Qərbin" sülhə 2,5 milyard avroluq "müdaxiləsi"*

**Ermənistan baş naziri Nikol Paşinyanın Əbu-Dabi görüşündən dərhal sonra Brüsselə üz tutması nəzərdən yayınmadı. Ermənİ mediası baş nazirin "Avropa turnesi" ilə bağlı maraqlı versiya və ehtimallara yer ayırıb. Hökumətə yaxınlığı ilə seçilən "Hraparak" qəzeti Paşinyanın Brüsselə təcili səfərinin Aİ rəsmilərinə Əbu-Dabidə Ermənistan və Azərbaycan arasında keçirilmiş ikitərəfli görüşün təfərrüatları barədə məlumat vermək zərurətindən yarandığını yazıb. Bu səfərin hətta iqtidardakı "Mülki müqavilə" partiyasının aparıcı funksionerləri üçün də gözlənilməz olduğunu vurğulayan nəşrin iddiasına görə, Paşinyan Brüsseldə Aİ Şurasının rəhbəri Antonio Koşta, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Fransa Prezidenti Emmanuel Makronla görüşlərində Rusiyanı Cənubi Qafqazdan çıxarmağa dair proqrama axıradək sadiq qalacağına söz verib. Məhz bu razılaşmanın nəticəsi olaraq Aİ "Global Gateway" strategiyası çərçivəsində Ermənistana maliyyə yardımının həcmini 2,5 milyard avroya qədər artıracağı barədə qərarını açıqlayıb.**




Brüsseldən sonra Parisə yollanan və Yelisey sarayında Fransa prezidenti Emmanuel Makronla görüşən Paşinyan bu barədə məlumatı sosial şəbəkə hesabında paylaşıb. Amma bu zaman, o, təfərrüata varmayıb.

*

Aydın məsələdir ki, Ermənistan–Azərbaycan arasında sülh gündəmi ilə bağlı ikitərəfli təmasların Avropada deyil, ərəb ölkəsində baş tutması və buradan konstruktiv dialoq barədə dünyaya mesajlar verilməsi, üstəlik, okeanın o tayından tərəflərin sülh təşəbbüslərini dəstəkləyən açıqlamaların səslənməsi "kollektiv Qərb"i, xüsusilə də Fransanı narahat etməyə bilməzdi. Bəli, İrəvan və Bakı arasında tet-a-tet formatlı görüşlərin konkret nəticələr verməyə başlaması "qoca qitə"nin təmsilçiləri özlərinin maraqlarına ziyan vuran amil kimi görürlər. Aİ bu prosesdə iştirakının sıfırlanması ilə paralel olaraq, bölgədə nüfuzunun azalması reallığı ilə də barışmağa çətinlik çəkir və indiki mərhələdə Ermənistana təsir rıçağı kimi onu pulla şirnikləndirməyə üstünlük verir. "Global Gateway" xətti ilə Ermənistana 2,5 milyard avro maliyyə yardımının ayrılması faktına Aİ-nin narahatlığının "fəsadı" kimi baxmaq daha doğru olar.

Brüsseldə keçirilən danışıqların yekunlarına dair birgə bəyanatda 2,5 milyard avronun nəqliyyat, enerji, rəqəmsal infrastruktur və kiçik biznesin inkişafına yönəldiləcəyi öz əksini tapsa da, qeyri-ixtiyari belə bir sual yaranır: Elan edilmiş vəsait, doğrudanmı göstərilən istiqamətlər üzrə xərclənəcək, yoxsa hərbi məqsədlər üçün, məsələn, Hindistandan, ya da həmin Fransadan hücum silahlarının alınmasına yönəldiləcək? Belə güman etmək istərdik ki, bu milyardlar həqiqətən də enerji, nəqliyyat və özəl sektora xərclənəcək. İntəhası, bu cür nəhəng infuziya faktı o deməkdir ki, Ermənistan büdcəsi digər məsrəflərdən, məsələn, hərbi xərclərdən azad ediləcək. Bunu yoxlamaq elə də çətin olmayacaq. Əgər gələn il bu ölkənin hərbi büdcəsi xeyli artırılsa, bu, o demək olacaq ki, Ermənistanın hərbiləşdirilməsi proqramı nəinki davam edir, hətta artırılır. Axı, toplananların yeri dəyişəndə cəm dəyişmədiyi kimi, yerdə şərtlərə yenidən baxılması da məbləğdə fərq etməyəcək. Bəzi ekspertlər İrəvana ayrılan yardımın əsasən Ermənistanın Rusiya qarşısında duruş gətirməsinə hesablandığı qənaətini bölüşürlər.

*

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** Aİ-nin bu siyasətinin heç də təzə olmadığını, COVID-19 epidemiyası zamanı bu birliyə daxil olan, eləcə də onunla əməkdaşlıq edən ölkələr üçün maliyyə yardımları nəzərdə tutulduğunu bildirdi: "Həmin vaxt müxtəlif forma



və şəkildə bilavasitə yardımlar edilirdi. Amma əsas məsələ odur ki, indiki 2,5 milyard avro investisiya üçün nəzərdə tutulan məbləğdir. Yəni, bildiyimiz qədər, bu pullar Ermənistan hökumətinin hesabına köçürülməyəcək. Bu məbləği əldə etməkdən ötrü Ermənistan kifayət qədər effektiv sayılan investisiya layihələrini təqdim etməlidir. Həmin çoxsaylı layihələrin maliyyələşdirilməsi isə beş il müddətinə nəzərdə tutulur. Aİ zəruri hesab etdiyi təqdirdə həmin layihələrə lazımi resursları yönəldəcək. Bu vaxta qədər İrəvan bir neçə layihə verib ki, onların da ümumi dəyəri 5 milyon avrodan yuxarı olmayıb. Aİ oxşar layihəni vaxtilə Gürcüstanda da həyata keçirib. Sonralar Şimal–Cənub marşrutunun inşa edilməsinə də maliyyə ayrılması istəmişdilər. Müəyyən məbləğ ayrılmışdı. Bundan başqa, 80-100 milyon dollar vəsait orta və kiçik biznesin inkişafı üçün nəzərdə tutulub. Bu məbləğ isə banklar vasitəsilə kiçik biznes layihələrinin maliyyələşdirilməsinə yönəldiləcək.

Əslində, Avropa İttifaqı bu xarakterli layihələri qiymətləndirməklə məşğul olmur. Bunu qurumun yerli strukturları həyata keçirirlər. Bütün hallarda Aİ-nin ayırdığı vəsait nə büdcəyə dəstək kimi, nə Ermənistanın hansısa müdafiə xərclərinə, nə də silah alınması üçün nəzərdə tutulub".

Əgər İrəvan ayrılan vəsaiti təyinatından kənar məqsədlər üçün istifadə etməyə çalışarsa, bununla finiş xəttinə yaxınlaşmaqda olan sülh prosesini riskə atmış olacaq. İki ölkə arasında nizamlanma prosesinin başa çatması ərəfəsində Ermənistanın silahlandırılması məsələsi yenidən gündəmə gətiriləcəksə, bu, yeni problemlər yarada bilər. Əbu-Dabidə yeni məzmun kəsb etməyə başlamış vasitəçisiz, ikitərəfli sülh danışıqları prosesində Azərbaycanın mövqeyi və sülh şərtləri dəyişməz olaraq qalır. Bunlar Ermənistan konstitusiyasında qonşuların ərazi bütövlüyünə təhdid yaradan müddəanın aradan qaldırılması və ATƏT-in Minsk qrupunun de-yure ləğv edilməsidir.

*

Bu yerdə xatırlatmaq yerinə düşər ki, Əbu-Dabi danışıqlarından sonra Fransa prezidenti Makron Bakı və İrəvan arasında münasibətlərin normallaşdırılması istiqamətində hərəkətlərə dəstək ifadə etmək qərarına gəldi. O, özünün "X" sosial şəbəkəsindəki səhifəsində belə yazıb: "Ən qısa müddətdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması regionun bütün ölkələri və xalqları üçün yeni səhifə açacaq". İndiki məqamda onun bu arzusunda nə qədər səmimi olduğunu bilmək heç də asan deyil.

Fəqət Aİ və Ermənistan arasında son razılaşma ilə bağlı narahatlıq doğuran, militarizmdən savayı başqa bir nüans da var. Nikol Paşinyanın Qərbdən, xüsusilə də Avropadan maliyyə "inyeksiyalarını" asanlıqla qəbul etməsi onun ölkəsinin suverenliyini gücləndirmək siyasətini nə dərəcədə ardıcıl həyata keçirə biləcəyinə dair bəzi şübhələr yaradır. Yəni, proses "kollektiv Qərb"in ssenarisinə uyğun davam edərsə, Ermənistan, sadəcə olaraq, böyük qardaşı digəri ilə əvəz edəcək. Bu da Cənubi Qafqazda daimi gərginlik mənbəyini saxlamaq demək olacaq.

2026-cı ilin iyun ayında Ermənistanda parlament seçkiləri keçiriləcək. Onu da nəzərə almaq lazımdır ki, Paşinyan hakimiyyəti Rusiyanın təsir dairəsindən mümkün qədər tez çıxmağa, ən azı, Moskvanın üzərindəki təsirini zəifləməyə çalışır. Kənardan belə görünür ki, rəqiblərinə qarşı mübarizədə Nikol Paşinyan qarşısına qoyduğu məqsədlərə çatır. Baxmayaraq ki, son dövrlər Rusiya öz əlaltıları vasitəsilə Ermənistan daxilində siyasi hərarəti xeyli qaldırıb. Belə güman etmək olar ki, ABŞ və Aİ-nin yardımları sayəsində Paşinyan Rusiyanın təzyiqləri qarşısında duruş gətirəcək. Ümid edək ki, Aİ-nin Ermənistana ayırdığı maliyyə yardımı sülh prosesinə mənfi təsir göstərməyəcək. Siyasi məntiqə görə də Nikol Paşinyan bundan sui-istifadə edəcəyi inandırıcı görünmür. Çünki onun üçün sülh sazişinin tezliklə imzalanması bütün aspektlərdə vacib və əhəmiyyətlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Erməni Apostol Kilsəsi İŞİD-in filialıdırmı?

(əvvəli 1-ci səhifədə)

Xarici aləmdə Ermənistanı demokratik ölkə kimi tərənnüm edən fikir və bəyanatlar səslənməkdədir. Demokratiya isə kifayət qədər dərin məhfumdur. Hay qövmünün 2018-ci ilədək bu məhfumun dərkinə doğru hansısa məsafə qət etməsi mümkünsüzdür. Yəni, baş nazir Nikol Paşinyanın hakimiyyətə yiyələnməsi hansısa mütərəqqi təfəkkür tərzinin təntənə məhsulu deyildi.

Tam əminliklə söyləyə bilərik ki, Ermənistana demokratiya qapıdan və pəncərədən yox, məhz bacadan daxil olub. Üstəlik, o, möhkəm zədələnib. Çünki baca dardır. İndi isə obrazlı desək, zədələnmiş, qolu-qanadı əzilmiş erməni demokratiyası humanizmin və bəşəriliyin zərrə qədərini belə özündə daşımayan erməni kilsəsi tərəfindən zorlanır. O zaman sual olunur: Ermənistanda demokratiya varmı?

Bəli, Ermənistanda demokratiyanın mövcudluğundan danışmaq, yaxşı halda pafos və populizmdir. Həm də o səbəbdən ki, ölkə hər zaman anti-demokratik ünsürün - kilsənin təsiri altında olub. Orta statistik erməninin baxış bucağı məhz bu dini strukturun təsiri altında formalaşıb. Belə zay təsirin nəticəsidir ki, hay cəmiyyəti hazırda xəstədir. 1988-ci ildən vüsət almış "Miatsum" cəfəngiyyatı da, azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarından deportasiyası da, sonradan torpaqlarımızın işğalı da xəstəliyin nəticəsi idi.

Lakin ölkəmiz və xalqımız 2020-ci ilin 44 günlük müharibəsi ilə təcavüzə son qoydu. Silahlı Qüvvələrimizin 2023-cü ildə reallaşdırdığı lokal xarakterli uğurlu antiterror tədbirləri isə haqqında söz açdığımız "Miatsum" cəfəngiyyatını tarixin zibilliyinə göndərdi. Deməli, həm də erməni kilsəsinin müəyyənləşdirdiyi xətt iflasa uğradı. Durum dini təsisatı qeyzləndirməyə bilməzdi. Nəzərə alsaq ki, 2018-ci ildə Ermənistanda baş nazir N.Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş proseslər inqilab kimi qələmə verilir, deməli, hazırda ölkədə yaşananları əks-inqilabi cəhd adlandırmaq mümkündür. Əlbəttə, məsələyə klassik anlamda yanaşmırıq. Çünki gerçək inqilab olmadığı kimi, əks-inqilabi proses də qeyri-mümkündür.

Hər bir halda, deyək ki, Ermənistandakı əks-inqilabi cəhdin müəllifi də çoxşaxəli, təkcə ölkədə deyil, ondan kənarda da ciddi dayaqlara malik Erməni Apostol Kilsəsidir. Kilsə erməni iqtidarına, baş nazir Paşinyana qarşı kin və nifrət püskürür. Püskürtünün həm daxili, həm də xarici təzahürü var. Söhbət iyulun 13-də ABŞ-ın Kaliforniya ştatının Qlendeyl şəhərində Ermənistanın Baş Konsulluğu qarşısında keçirilmiş aksiyanın dəhşətli çağırışdan gedir.

Deməli, sözügedən aksiyanın keşiş iştirakçısı Nikolun başının kəsilməli olduğunu bildirib. Hesab edirik ki, belə qorxunc çağırışın səslənməsi Ermənistanda zaman-zaman özünü qapalı formada göstərmiş, bu ilin mayından açıq müstəviyə keçmiş kilsə-iqtidar qarşıdurmasının kuliminasiya anıdır. Mövcud fonda ən maraqlı məqam isə hakim komandanın verdiyi reaksiyadır.

Beləliklə, Ermənistan baş nazirinin aparat rəhbəri Araik Arutyunyan Qlendeyldəki olayı şərh edərkən, Erməni Apostol Kilsəsini terrorçu İŞİD-lə müqayisə edib. "Erməni Apostol Kilsəsini İŞİD-in filialına çeviriblər. Baş kəsirlər. Özü də Ermənistan Respublikasının baş nazirinin başını. Bax, belə dostlar. İndi siz düşünürsünüz ki, Vazgen Qalstanyan bu qara cübbəlidən fərqli olaraq "qar gülləsi"dir?", - deyən hökumət rəsmisi qorxunc çağırış müəllifinin və dəstəkçilərinin xristianlıqla heç bir əlaqəsinin olmadığını vurğulayıb: "Onlar 1999-cu ildə müqəddəs kilsəmizi zəbt etmiş cəhənnəm nəsilləridirlər. Amma həm Vazgen Qalstanyan, həm də bu murdar sadəcə şeytandır, iblisin idarəsi altında olan və ona xidmət edəndir. Kilsəmizi məhz belə iblisdən azad etməliyik! Heç nə təəccüblü deyil. Çünki şeytanın özü də bəzən nur mələyi kimi görünür".

Məlum olduğu kimi, Arutyunyanın adını çəkdiyi Vazgen Qalstanyan Tavuş arxiyepiskopu Baqratdır. O Baqrat ki, ötən il paytaxt İrəvana yürüş təşkil etmiş və hakimiyyəti devirməyə çalışmışdı. O Baqrat Qalstanyan ki, ötən ay erməni hüquq-mühafizə orqanları tərəfindən həbs edilmişdi və hazırda dəmir barmaqlıqlar arasındadır. Heç şübhəsiz, Qlendeyldəki aksiya və ona Arutyunyanın münasibəti Baqratın azadlıq şansını tamamilə heçə endirir. Başlıca məqam isə erməni rəsminin kilsəni, bir növ, şər yuvası adlandırmasıdır. Deməli, Azərbaycan cəmiyyətinin illərdir vurğuladığı məqam təsdiqini tapır.



Bəli, Erməni Apostol Kilsəsinin xristianlıqla heç bir əlaqəsinin olmadığı hayların özləri, indiki halda Ermənistanın məsul şəxsi tərəfindən etiraf edilir. Bu, heç də adi məsələ sayıla bilməz. Deməli, ölkədəki ənənəvi mənfi stereotiplərə münasibətdə direniş var. Ancaq Arutyunyanın fikirlərində müəyyən düzəlişlər aparmaq vacibdir. Məsələ ondadır ki, Erməni Apostol Kilsəsi 1999-cu ildə korlanmayıb. Əvvəldə də bildirdik ki, bu dini təsisat bünövrədən şər yuvasıdır, məkrli planların qurulduğu platforma, habelə terrorun və qətlin ilhamvericisidir.

Ən başlıcası, kilsə erməni dövlətsizliyinin, hayların qövm strukturunun simvoludur. Əlbəttə, kilsə eyni zamanda özündə dövlət ideyasını daşıyan strukturdur. Zaman-zaman "erməni kartı" vasitəsilə qlobal məqsəd və planlar gerçəkləşdirmək istəyənlər hay dövləti formulu üzərinə köklənəndə bu formulun təbliğatını məhz kilsə aparmışdı. Ancaq mənfur kartı işə salan kəslər haylar üçün dövləti heç də onların qara qaşlarına və qara gözlərinə görə bəxş etməmişdilər. "Etimadı" doğrultmaq - barəsində söz açdığımız terrorları, qətlləri və digər çeşidli təxribat əməllərini törətmək şərt idi. Erməni Apostol Kilsəsinin "ideoloji missiyası" məhz bu sayaq məkrli aktları hazırlamağa və həyata keçirməyə hesablanmışdı.

Sonda belə nəticəyə gəlirik ki, erməni kilsəsi üçün hansısa dini müqəddəslik düsturu yoxdur. Bu qurum heç bir ənənəyə söykənmir. Onun tapındığı yalnız avantürizm və anarxizmdir. N.Paşinyanın başının kəsilməsi çağırışının ilhamvericisi də anarxizmin beşiyi olan Erməni Apostol Kilsəsi və onun rəhbəri II Qaregindir.

Ən sonda isə bir məqama toxunaq. Məlumdur ki, Nikol və tərəfdarları "real Ermənistan" formulu üzərində dayanırlar. Bu formul hazırkı Ermənistanın qeyri-reallıq və qeyri-leqallıq libasını sıradan çıxarmağı hədəf seçib. Deməli, reallıqdan uzaq dövlətsizlik dövrünün zay məhsulu olan kilsənin obrazı və məramı dəyişməlidir. Həm də ona görə dəyişməlidir ki, erməni varlığı sözügedən dini təsisatın təbliğ etdiyi qorxunc ideyaları təkbaşına qorumaq iqtidarında deyil və heç zaman da bu gücün daşıyıcısı olmayıb. Ona hər zaman xaricdən dəstək göstərilib.

Kilsə avantürizmi təbliğ etmək şakərindən qalmırsa, avantürizmin xarici dəstəyi heç bir işə yaramırsa, dini təsisatın tutacağı barışmazlıq xəttinin, revanşizmin və şovinizmin Ermənistanı fəlakətə aparacağı birmənalıdır. Yəni, Erməni Apostol Kilsəsi köhnənin klişelərindən uzaq dayanmalı, dövlətin xəttinə qarışmayan mahiyyət qazanmalıdır ki, Ermənistan heç nədən yaranmış dövlət varlığını sürdürsün. Başqa sözlə desək, terrordan, qəsbkarlıqdan, məkrli siyasi oyunların aləti obrazından çıxmış, qonşularla normal keçinən erməni dövləti formalaşsın. İndi bunun üçün tarixi şans yaranıb. Hər bir erməni bu şansı qaçırmamaq naminə çalışmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Keçmiş diplomatdan gələcək əleyhinə bəyanatlar

## *Sülhü "fəlakət" kimi təqdim edən Oskanyan erməni cəmiyyətində çaşqınlıq yaradır*

**Ermənistanın sabiq xarici işlər naziri, ölkədəki revanşist kəsimin diplomatik cinahdan "hücümçusu" Vardan Oskanyan iki dövlət və xalq arasında düşmənçiliyin davam etdirilməsi üçün var gücü ilə çalışır. Ayın əvvəlində siyasi dəstək tapmaq ümidi ilə İsveçrə parlamentinin deputatları Erix Fontobelli və Lukas Reymann, habelə Beynəlxalq Xristian Həmrəyliyi Təşkilatının prezidenti Con Eybnerlə birgə Vaşinqtona səfər edən, orada "Dağlıq Qarabağ üzrə İsveçrə sülh təşəbbüsü" adlanan qondarma təkliflər irəli sürən, Dövlət Departamentində bir sıra görüşlər keçirən və gördüyü təxribatçı işləri "ABŞ-ın Cənubi Qafqazda ədalətli və uzunmüddətli sabitliyə daha fəal cəlb olunmasını təşviq etmək" kimi cəmiyyətə sırıyan Oskanyan indi də Azərbaycan və Ermənistan liderləri arasında iyulun 10-da Əbu-Dabidə keçirilən görüşü təfsir etmək işinə girişib.**



Əlbəttə, istənilən görüşü, aparılan danışıqları şərh etmək onun hüququdur. Amma onun yanlış yozumları hiddət doğurur. Sabiq diplomat "Facebook"dakı səhifəsində etdiyi paylaşımda bildirib ki, Əbu-Dabi görüşünün nəticələri artıq aydınlaşmağa başlayıb. O, Zəngəzur dəhlizini "Sünik vilayətindən keçən qondarma dəhliz" adlandırıb və Paşinyanın buna razılıq verdiyini bildirib. "Hər şey göz qabağındadır" deyən Oskanyan bu razılığın, əslində, Ermənistan ərazisi üzərində suveren nəzarətin xarici qüvvəyə təhvil verilməsi olduğunu iddia edib: "Bu, ciddi strateji və siyasi güzəştdir, Ermənistanın ərazi bütövlüyünə birbaşa zərbədir və dövlətimizin onsuz da kövrək olan təməlində daha bir çatdır. Bu, Ermənistanın uzunmüddətli suvereniteti və milli təhlükəsizliyi üçün fəlakətdir".

Ermənistan baş naziri Nikol Paşinyanın Əbu-Dabi görüşündən az sonra – iyulun 14-də Brüssel və Parisə səfər etməsinə münasibət bildirən V.Oskanyan ehtimal edir ki, Nikol "bu ifrat problemli sövdələşməyə" Avropanın dəstəyini almaq üçün həmin paytaxtlara səfər edib. Qeyd edib ki, Paşinyanın əsas məqsədi 2026-cı il seçkilərinə qədər Azərbaycanla sülh müqaviləsi bağlamaqdır. Oskanyanın sülh müqaviləsi sözünü dırnaq işarəsi daxilində yazması da diqqətdən yayınmır. İddia edib ki, Paşinyan növbəti parlament seçkilərində qalib gəlmək kimi dar siyasi məqsədə çatmaq üçün təkcə əraziləri deyil, həm də "erməni xalqının ləyaqətini, tarixi yaddaşını və ədaləti qurban verməyə" hazırdır: "Onun "sülh" adlandırdığı nəsnə dövlətin uğursuzluğuna (failed state) dair rəsmi sənəddir. Paşinyan hakimiyyətdə olduğu 7 il ərzində müasir Ermənistan tarixində ən böyük milli fəlakətə başçılıq edib. İndiki hakimiyyət Ermənistanın gələcəyinin qurulmasında heç bir rol oynamamalıdır. Onlar erməni xalqına rəhbərlik etmək iqtidarında olmadıqlarını dəfələrlə sübut ediblər".

*

Ermənistan xarici siyasət idarəsinin keçmiş rəhbərinin Əbu-Dabi görüşü ilə bağlı fikirləri Hayastanın radikal revanşist ictimai-siyasi dairələrinin sülh prosesi ilə bağlı mövqeyini ortaya qoymaq baxımından maraqlıdır. Bu düşərgə hər vəchlə aparılan sülh danışıqlarına, bütövlükdə prosesə kölgə salmağa çalışır. Oskanyan da bu düşərgənin tipik nümayəndəsidir. Ümumiyyətlə, bu şəxs xarici işlər naziri postunu tutduğu 1998–2008-ci illərdəki fəaliyyəti zamanı bir sıra qeyri-konstruktiv yanaşmalarla yadda qalıb. Bunlardan ən vacibi onun "Madrid prinsipləri"nin mahiyyətini təhrif etməsi idi. Yada salmaq yerinə düşər ki, 2007-ci ildə ATƏT-in Minsk qrupu tərəfindən irəli sürülən "Madrid prinsipləri" sülhə doğru mühüm addım sayılsa da, Oskanyan bu prinsipləri Ermənistan cəmiyyətinə yanlış təqdim edirdi. O, bu sənədi yalnız keçmiş qondarma separatçı Qarabağ rejiminin statusunu ön plana çəkərək manipulyasiya edir, ərazilərin qaytarılması komponentini isə ictimai rəyin diqqətindən yayındırırdı.

Onun digər qeyri-konstruktivliyi "Qarabağ ermənilərinin iştirakı olmadan danışıqlar mümkün deyil" mövqeyi üzərində fokuslanmışdı. Oskanyan nazir kimi daim keçmiş separatçı rejimin danışıqlar masasında ayrıca tərəf kimi təmsil olunmasını tələb edirdi. Bu isə danışıqlar prosesini illərlə dalana salan, beynəlxalq hüquqa zidd, avantürist mövqe idi. Onun XİN-ə rəhbərliyi dövründə Ermənistan, xüsusilə Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq əvəzinə, təcrid siyasətini bütün gücü ilə davam etdirirdi. Türkiyə ilə diplomatik münasibətlərin qurulması imkanları o dövrdə də gündəmə gəlmişdi, lakin Oskanyan bu istiqamətdə real irəliləyişə imkan vermirdi. Oskanyan bu vəzifəyə Qarabağ klanının "xaç atası" Robert Koçaryan tərəfindən təyin edilmişdi. Bu cütlüyün siyasəti isə Ermənistanı müstəqil dövlət olmaqdan çıxararaq, Rusiyanın asılılığına salınmasına xidmət edirdi. Məhz bu klanın 20 illik (1998–2018) hakimiyyəti dövründə Ermənistanın Rusiyadan hərbi və siyasi asılılığı daha da möhkəmlənib. Ermənistanın bir çox strateji sahələri – İrəvandakı "Zvartnots" hava limanının, Cənubi Qafqaz Dəmir Yolunun, elektrik şəbəkəsinin, su-kanal sisteminin Rusiya tərəfindən autsorsinqlə idarə olunmasına başlanıldı. Mülkiyyət isə formal olaraq dövlətə məxsus olaraq qaldı. Üstəlik, Oskanyanın dövründə xarici siyasət balanssız idi və bu, ölkənin beynəlxalq manevr imkanlarını ciddi şəkildə məhdudlaşdırırdı.

*

Xarici işlər naziri olduğu dövrdə radikal, barışmaz xəttin tərəfdarı olan Oskanyanın indiki məqamda Əbu-Dabi görüşü ilə bağlı fikirləri bir daha göstərir ki, o, keçmiş diplomatik statusundan istifadə edərək ictimai rəydə çaşqınlıq yaratmaqda, pozuculuqda israrlıdır. Onun Zəngəzur dəhlizi ilə bağlı "qondarma dəhliz" ifadəsi və Ermənistanın ərazi bütövlüyünə, guya, zərbə vurulması barədə dedikləri kökündən yanlışdır. Bu yanaşma nə hüquqi reallıqlara uyğun gəlir, nə də beynəlxalq vasitəçilərin yanaşmasına əsaslanır. Əksinə, Vardan qəsdən ictimaiyyətdə sülh prosesinə qarşı inamsızlıq yaratmağa çalışır. Onun paylaşımında yer alan "suverenliyin xarici qüvvəyə təhvil verilməsi" tezisi sadəcə, populist ritorikadır. Çünki burada söhbət bölgədə nəqliyyat-kommunikasiya xətlərinin açılmasından gedir. Hərbi və ya siyasi təslimiyyət aktından söhbət getmir.

Zəngəzur dəhlizinin açılması 2020-ci il 10 noyabr tarixli razılaşmanın tərkib hissəsidir. Rəsmi İrəvan həmin sənədə öz imzasını atmaqla bu öhdəliyi qəbul edib. Bu dəhliz Ermənistanın suveren ərazisindən keçir və onun suverenliyinə heç bir formada xələl gətirmir. Hələlik proseslə bağlı müzakirələr aparılır, yekun razılaşma yoxdur. Amma Azərbaycan tərəfi bizim Ermənistan ərazisində, necə deyərlər, gözümüzün olmadığını dəfələrlə yüksək səviyyələrdə bəyan edib. Dəhlizin işə düşməsindən Ermənistan dövlətinin də böyük fayda əldə edəcəyi şübhəsizdir. Bu zaman Hayastan dalan vəziyyətindən çıxacaq və ticarət əlaqələrini inkişaf etdirməklə böyük qazanc əldə edəcək. Gələn gəlirlərdən, sözsüz ki, Ermənistan vətəndaşlarına da pay düşəcək, onların maddi, sosial vəziyyəti yaxşılaşacaq. Bu isə 2026-cı il seçkilərində Paşinyanın mövqeyini gücləndirən, revanşistləri isə daha da zəiflədən amildir. Məhz bu səbəbdəndir ki, Oskanyan prosesi bilərəkdən suverenlikdən imtina kimi təqdim edir. Halbuki, o, özü XİN başçısı olduğu dönəmdə danışıqlar prosesini illərlə dalana salmış, separatçıları əsas tərəf kimi tanıtmaqla məsuliyyətdən yayınmışdı. İndi isə konstruktiv dialoqu baltalayan, cəmiyyətə qorxu yayan yanaşmalarla çıxış edir.

Başabəla diplomatın Paşinyanın Brüssel və Paris səfərlərinə dair şərhləri onun sülh prosesinə qarşı düşmən münasibətinin növbəti nümunəsidir. Əgər bir ölkənin baş naziri sülh müqaviləsinə dəstək üçün beynəlxalq tərəfdaşlarla təmaslar qurursa, bu, diplomatik cəhd kimi dəstəklənməlidir. Lakin Oskanyan həmin səfərləri "ifrat problemli sövdələşmə"yə "dəstək axtarışı" kimi təqdim edir və bu fikrini tamamilə subyektiv, emosional ittihamlarla möhkəmləndirməyə çalışır. Onun "sülh müqaviləsi" məhfumunu dırnaq işarəsinə alması, əslində, təkcə Paşinyana deyil, həm də bütövlükdə bölgədə sabitlik istəyən bütün tərəflərə yönəlmiş, necə deyərlər, siyasi hörmətsizlikdir.

Oskanyanın "erməni xalqının ləyaqətini və tarixi yaddaşını qurban vermək" kimi ritorikası cəmiyyətin ən zəif emosional damarlarını tutmağa yönəlib. O, Ermənistanın sülhə deyil, əbədi düşmənçilik rejiminə məhkum olunmasını istəyir. Halbuki bu yol nə erməni xalqının rifahına, nə də dövlətin sabit gələcəyinə xidmət edir. "Dövlətin uğursuzluq sənədi" kimi təqdim olunan sülh razılaşması, əslində, Ermənistan üçün regionda kommunikasiyalara çıxış, iqtisadi dirçəliş və beynəlxalq inteqrasiyanın bəlkə də sonuncu şansıdır. Oskanyan isə Paşinyanı "ən böyük milli fəlakətin müəllifi" elan etməklə, əslində, Ermənistanı fəlakətə sürükləmiş öz dövrünün məsuliyyətindən yayınmağa çalışır.

Sonda qeyd edək ki, siyasi fəaliyyətində qapanma, təcridçilik və revanşizm mövqelərini müdafiə etmiş bir şəxsin Əbu-Dabi görüşü ilə bağlı bu cür şərhi gözlənilən idi. Ancaq bu yanaşma Ermənistanı nə inkişaf etdirir, nə də regionda sabitlik arzusunu reallaşdırır. Oskanyanın şərhləri yeni reallıqları qəbul etməyə qadir olmayan, keçmişin yükünü bu günə daşıyan, cəmiyyətə qorxu və təfriqə yayan köhnə zehniyyətin səsinə çevrilib. Ermənistanın gələcəyi bu ritorikadan deyil, real və məsuliyyətli diplomatiyadan keçir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

– Oskanyanın Əbu-Dabi görüşünə münasibəti bir daha göstərdi ki, Ermənistanın keçmiş siyasi elitası sülh prosesinə konstruktiv yanaşmaq əvəzinə, onu ya qeyri-mümkün kimi təqdim edir, ya da bilərəkdən manipulyasiya edir. Oskanyan Paşinyan hökumətini zəiflikdə və mövqesizlikdə ittiham etsə də, əslində bu ritorika ilə həm Ermənistan cəmiyyətini çaşdırır, həm də köhnə revanşist zehniyyətə xidmət edir. Onun "sülh əbədi olmayacaq" tipli fikirləri Ermənistan daxilində radikal dairələrin motivasiyasını artırır, regionda sabitlik və əməkdaşlıq ehtimalını isə azaldır.

Əgər keçmiş XİN rəhbəri real təhlükələri önə çəkmək istəyirsə, ilk növbədə Ermənistanın özünün 30 illik işğal siyasətinə və onun nəticələrinə nəzər salmalıdır. Bugünkü danışıqlar məhz həmin siyasətin nəticələrini aradan qaldırmaq və regional inteqrasiyanı təmin etmək məqsədi daşıyır. Oskanyanın şərhi sülh deyil, sabitliyin pozulmasında maraqlı olan qüvvələrin ritorikası ilə üst-üstə düşür və bu, qətiyyən təsadüfi deyil.

# Dövlət – sahibkar əməkdaşlığı tərəqqi amilinə çevrilib

(əvvəli 1-ci səhifədə)

Sahibkarlıq sahəsində yoxlamaların, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması iş adamlarının xərclərinin azalmasına səbəb olub, büdcəyə vergi ödənişlərinin həcmini artırıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı və Pirallahı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayonda fəaliyyət göstərən sahibkarlarla keçirilən görüşdə də bütün bunlar barədə ətraflı bəhs edilib. Dövlət – sahibkar əməkdaşlığı çərçivəsində reallaşan bu toplantıda, eyni zamanda, dövlətin dəstək vasitələrindən istifadə olunmaqla rayonun biznes potensialının gerçəkləşdirilməsi müzakirə olunub.

Görüşdə 2016-cı ildə yaradılan Pirallahı Sənaye Parkının fəaliyyətinə toxunularaq burada qeyri – neft sektorunun, xüsusilə sənaye və əczaçılıq sahəsinin inkişafında sahibkarlığın önəmi vurğulanıb. Eyni zamanda, sənaye istehsalının qurulması üçün sənaye parkının təklif etdiyi güzəştlərin və infrastrukturun əhəmiyyətindən danışılıb. İş adamlarının müasir çağırışlara uyğun olaraq innovativ və rəqabətqabiliyyətli istehsala yatırım etmələrinin faydası yüksək dəyərləndirilib.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatında son illər müşahidə olunan struktur dəyişiklikləri, iqtisadi islahatların yeni mərhələsi və sahibkarlığın təşviqi ölkədə özəl sektorun inkişafına mühüm təkan verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı islahatlar nəticəsində biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici sərmayələrin təşviqi, vergi və gömrük sahəsində şəffaflığın artırılması, həmçinin dövlət – özəl sektor əməkdaşlığının genişləndirilməsi sayəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib.

Özəl bölmənin inkişafı üçün zəruri ilkin şərt olan müvafiq hüquqi – institusional bazanın yaradılması son illər diqqət mərkəzində saxlanılıb. Bu istiqamətdə Azərbaycan hökuməti tərəfindən bir sıra mühüm addımlar atılıb. KOBİA isə sahibkarlara dəstək verib, maarifləndirmə və məsləhət xidmətləri göstərib, innovativ biznes ideyalarının reallaşmasına yardım edib. Sahibkarların qarşılaşdığı çətinliklərin aradan qaldırılması məqsədilə "ASAN xidmət", "Rəqəmsal icazə və qeydiyyat sistemi", "Bir pəncərə" mexanizmlərinin tətbiqinə başlanılıb. Bu yanaşma sahibkarların vaxt və resurs itkisinin azalmasına, fəaliyyətlərinin sadələşdirilməsinə əlverişli şərait yaradıb.

Özəl bölmənin dayanıqlı inkişafı üçün maliyyə resurslarına çıxışın genişləndirilməsi də əsas prioritetlərdən biridir. Sahibkarlığın İnkişafı Fondu vasitəsilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi təşviq olunur. Bu kreditlər qeyri-neft sektorunun inkişafı, regionlarda iş yerlərinin yaradılması və yerli istehsalın artırılmasına xidmət edir. Bundan əlavə, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi vasitəsilə yerli məhsulların xarici bazarlara çıxışı dəstəklənir, beynəlxalq sərgilərdə iştirak gerçəkləşdirilir. 2024-cü ildə qəbul edilən yeni "İnvestisiya təşviqi mexanizmi" çərçivəsində strateji sahələrdə fəaliyyət göstərən sahibkarlara vergi güzəştləri və digər stimullaşdırıcı tədbirlər tətbiq edilir.



Azərbaycan dövlət – özəl bölmə əməkdaşlığını sadəcə inzibati dəstək formasında deyil, strateji tərəfdaşlıq müstəvisində formalaşdırır. Dövlət orqanları ilə sahibkarlar arasında mütəmadi keçirilən ictimai müzakirələr, biznes forumları və sahəvi işçi qrupları çərçivəsində real dialoq və qarşılıqlı anlaşma təmin olunur. Bu əməkdaşlıq biznes mühitinin təkmilləşdirilməsi, normativ – hüquqi bazanın yenilənməsi və sahibkarların tələbatına uyğun təşviq mexanizmlərinin hazırlanması baxımından mühüm rol oynayır.

Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı özəl sektor üçün yeni imkanlar yaradır. Startap ekosisteminin formalaşması, texnoparkların və innovasiya mərkəzlərinin fəaliyyətə başlaması, eləcə də "Elektron hökumət" xidmətlərinin genişləndirilməsi sahibkarların rəqəmsal transformasiyasını sürətləndirir. Yeni nəsil sahibkarlıq kimi formalaşan bu yanaşma – texnologiyaya əsaslanan, çevik və beynəlxalq bazarlara inteqrasiya olunan biznes modellərinin inkişafına xidmət edir. İnnovativ fəaliyyətlə məşğul olan şirkətlər üçün vergi güzəştləri və dövlət qrantları təmin olunur.

Azərbaycanda özəl sektorun inkişafı yalnız iri şəhərlərlə məhdudlaşmır. Dövlət tərəfindən qəbul edilən regional inkişaf proqramları çərçivəsində rayonlarda aqrar sahənin modernləşdirilməsi, sənaye zonalarının yaradılması, logistika mərkəzlərinin qurulması sahibkarlığın regionlara sürətlə yayılmasını stimullaşdırır. Bu da, öz növbəsində, əhalinin sosial rifahının yüksəlməsinə, məşğulluğun artmasına və daxili bazarın dərinləşməsinə səbəb olur. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında azad edilmiş ərazilərin bərpası ilə paralel olaraq, dövlət – özəl tərəfdaşlığı modeli əsasında sənaye və kənd təsərrüfatı layihələri də həyata keçirilir.

Azərbaycan həm daxili sahibkarlar, həm də xarici investorlar üçün cəlbedici iqtisadi məkana çevrilib. 2024-cü ildə Dünya Bankının "Biznesin aparılması" hesabatında Azərbaycanın mövqeyi əhəmiyyətli dərəcədə yüksəlib. Sabit siyasi mühit, infrastrukturun müasirləşdirilməsi və enerji təhlükəsizliyi xarici biznes dairələrinin marağını artıran amillər sırasında yer alıb. Neft – qaz sektorundan kənar sahələrə – xüsusən kənd təsərrüfatı, "yaşıl" enerji, turizm və informasiya texnologiyalarına sərmayə qoyuluşu üçün dövlət tərəfindən əlavə stimullar təqdim olunur.

Bütün bu uğurlar göstərir ki, Azərbaycanda özəl sektorun inkişafı məqsədilə formalaşdırılmış kompleks strategiya səmərəli nəticələr verməkdədir. Dövlət və sahibkar arasında qurulan qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modeli iqtisadiyyatın diversifikasiyasına, qeyri – neft sektorunun gücləndirilməsinə və bu sahədə uzunmüddətli dayanıqlığa xidmət edir. Gələcəkdə də bu əməkdaşlığın yeni təşəbbüslərlə daha da dərinləşdirilməsi, texnologiyaya əsaslanan və ixracyönümlü sahibkarlığın təşviqi ilə Azərbaycan iqtisadiyyatı daha da güclənəcək.

Bir məqamı da xatırlatmaq istərdik. Ölkədə özəl bölmənin inkişafı təkcə sahibkarlığın kreditləşməsinin diqqət mərkəzində saxlanılması ilə məhdudlaşmır. Bu sahənin qanunvericilik bazasının möhkəmləndirilməsi, sahibkarlığın inkişafına mane olan inhisarçılıq hallarının aradan qaldırılması, özəl bölmə subyektlərində dövlət qurumları tərəfindən qanunsuz yoxlamalar aparılması və çoxsaylı əsassız lisenziyaların verilməsi kimi neqativ hallara qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi daim diqqətdə saxlanılır, dövlət qurumlarının, həmçinin ayrı-ayrı nazirliklərin fəaliyyətlərində bu problemlərin həllinə xüsusi əhəmiyyət verilir.

Özəl bölmənin inkişafından bəhs edərkən bir il bundan əvvəl qüvvəyə minən Rəqabət Məcəlləsinin tətbiqi və onun biznes mühitinə təsirləri barədə də danışmaq yerinə düşər. Yeri gəlmişkən, ekspertlər tərəfindən inhisarçılıq və haqsız rəqabət halları ilə mübarizədə Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını stimullaşdıracağı qeyd edilir. "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı"nın da kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə maneə yaradan amillərin aradan qaldırılmasına xidmət edəcəyi bildirilir.

Ümumiyyətlə, istər Rəqabət Məcəlləsində, istərsə də adıçəkilən Milli Fəaliyyət Proqramı ölkəmizdə rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

# Neft sektorunda 2 yeni müqavilə imzalanıb




**Azərbaycan Dövlət Neft Şirkəti və ABŞ-ın KBR şirkətinin birgə müəssisəsi olan "SOCAR-KBR" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Böyük Britaniyanın BP şirkəti arasında ölkəmizdə 2 yeni layihə üzrə müqavilələr imzalanıb. Bu barədə KBR şirkəti açıqlama yayıb.**

Qeyd olunub ki, bu sənədlərin biri Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsinin dəstəklənməsi, digəri isə "Şahdəniz Kompressiya Platforması" (SDS) layihəsi ilə bağlıdır. Müqavilələrin şərtlərinə əsasən, SOCAR-KBR hər iki layihə üçün ətraflı mühəndis layihələndirməsi və satınalma xidmətləri təqdim edəcək. Müqavilələrin dəyəri açıqlanmır. "SOCAR-KBR" MMC tərəfindən həyata keçirilməsi nəzərdə tutulan layihələrin icrasında yerli mütəxəssislərin təcrübəsindən və KBR-in beynəlxalq komandasının dəstəyindən istifadə ediləcək.

"Əvvəllər SOCAR-KBR STEL layihəsi üçün baza mühəndisliyi (FEED), həmçinin SDC üçün layihə öncəsi işləri və FEED həyata keçirib. Bu əlavə işlər BP-nin SOCAR-KBR-in yüksək keyfiyyətli xidmətlərinə dəyişməz inamını əks etdirir", – deyə məlumatda qeyd olunub. "KBR" şirkətinin prezidenti Cey İbrahim isə bildirib ki, rəhbərlik etdiyi qurumun layihələndirdiyi, Azərbaycan ilə Avropa arasında mühüm əlaqə həlqəsi – Səngəçal terminalı ölkəyə milli enerji şəbəkəsinə keçid etməyə və emissiyaları azaltmağa imkan verəcək. Onun sözlərinə görə, "Şahdəniz" yatağında kompressor stansiyası layihəsi təhlükəsiz və səmərəli həllərin təqdim edilməsində növbəti mərhələni təmsil edir.

Xatırladaq ki, SOCAR-KBR-in Bakıdakı komandasının 95 faizindən çoxunu azərbaycanlı mühəndislər, layihəçilər və digər mütəxəssislər təşkil edir.

# Ölkəmizə Belarus yatırımı 3 dəfə çoxalıb

**Mərkəzi Bankdan verilən məlumata görə, cari ilin birinci rübündə Belarusdan Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi 807 min ABŞ dolları təşkil edib.**

Məlumata əsasən, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə sözügedən ölkədən Azərbaycan iqtisadiyyatına investisiyalar 563 min dollar və ya 3,3 dəfə artıb. 2024-cü ilin ilk rübündə Belarusdan Azərbaycana birbaşa xarici investisiyaların həcmi isə 244 min dollara bərabər olub. Cari ilin ilk 3 ayında Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində Belarusdan yatırılan investisiyaların payı 0,1 faiz təşkil edib.



Qeyd edək ki, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 1,518 milyard dollardan çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 10,456 milyon dollar və ya 0,7 faiz artım deməkdir. Eyni zamanda, hesabat ili ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 315,116 milyon dollar olub ki, bu da 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 15,335 milyon dollar və ya 4,6 faiz azdır.

# Ağdamda lift və eskalator da buraxılacaq

**Azərbaycan – Çin birgə kapitallı "Fujiai Azerbaijan" MMC-yə agentliyin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidentliyi statusu verilib. Yeni rezident tərəfindən sənaye parkının 1 hektar ərazisində lift istehsalı müəssisəsi yaradılacaq. Layihənin investisiya dəyəri 3,7 milyon manatdır. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**




Bildirilib ki, Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 1200 ədəd lift istehsalı nəzərdə tutulur. Növbəti mərhələdə şirkət tərəfindən sənaye parkında eskalator istehsalı layihəsinin də həyata keçirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, Ağdam Sənaye Parkında hazırda investisiya portfeli 270 milyon manat olan 29 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib.

Sözügedən parkda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün müxtəlif güzəşt və imtiyazlar tətbiq olunur. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye zonaları sahibkarlara böyük iqtisadi fürsətlər təqdim edir. Dövlət sənaye parklarını hazır infrastrukturla təmin edir. Rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumundan tam azad olunurlar. Həmçinin işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin kreditlərinə dövlət zəmanəti verilir və faizlərin bir hissəsi subsidiyalaşdırılır. Bu ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara hər ay istehlak olunan kommunal xidmətlərə görə ödədikləri vəsaitin 20 faizi məbləğində dövlət büdcəsi hesabına maliyyə yardımı ödənilir.

# Yeni kiçik SES-lər tikiləcək



**Yaxın vaxtlarda inşası nəzərdə tutulan Qoşasu, Seyidlər və Bülövlü kiçik su elektrik stansiyalarının tikintisinə sərf olunacaq vəsaitin həcmi müəyyənləşib. "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin məlumatına əsasən, inşaat işlərinə 55 milyon 167 min 900 manat vəsait xərclənəcək. Artıq bununla bağlı müvafiq işlərə başlayan qurum həmin stansiyaları inşa edəcək şirkətin axtarışındadır.**

Qeyd edək ki, kiçik su elektrik stansiyaları suyun axın enerjisindən istifadə edərək elektrik enerjisi istehsal edən, adətən 1–10 meqavat gücə malik olan kiçik həcmli obyektlərdir.

Bununla yanaşı, qurum ölkəmizin işğaldan azad edilmiş ərazilərində yeni kiçik su elektrik stansiyalarının tikintisinə sərf ediləcək vəsaitin də həcmini açıqlayıb. Bildirilib ki, həmin stansiyaların inşası 36 milyon 957 min 458 manata başa gələcək. Kəlbəcər şəhər və Eyvazlı kiçik su elektrik stansiyalarının tikintisi, eləcə də yeni inşa edilən digər kiçik SES-lərin enerjisistemə inteqrasiyası həyata keçiriləcək. "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti bununla bağlı hazırlıq işlərinə start verib. İlk növbədə, sözügedən işləri icra edəcək şirkətin müəyyənləşdirilməsinə başlanılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "Əkinçi"nin nəşri mənəvi qəhrəmanlıq idi

**Müsahibimiz tanınmış media pedaqoqu və nəzəriyyəçisi, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin keçmiş dekanı, yeni media və kommuniksiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmovdur. 60 ildən artıq müddətdə peşəkar jurnalistlərin bir neçə nəslinin sevimli müəllimi olan ustad qələm sahibi çağdaş media nəzəriyyələrinin tədrisi prosesini milli mətbuatımızın demokratik ənənələrinin tarixi təcrübəsi ilə məharətlə uzlaşdırır.**

**– Akif müəllim, milli mətbuatımızın tarixi jurnalistlərimizin indiki nəsli üçün canlı media məktəbidir. Bu baxımdan ilk milli qəzetimiz "Əkinçi"nin illər ötdükcə qədir-qiyməti yüksəlir. Abdulla Şaiqin həqiqi xalq xadimi adlandırdığı Həsən bəy Zərdabinin ərsəyə gətirdiyi bu qəzetin özü də xalqa sözlə, qələmlə xidmətin mükəmməl nümunəsidir.**

– Həsən bəy Zərdabi təkcə bizim xalqın deyil, türk dünyasının böyük oğludur. Yetirmələri və davamçıları onu millətin mənəvi atası sayırdılar. Ümummilli lider Heydər Əliyev Atatürk mükafatının təqdimetmə mərasimində demişdi ki, Mustadfa Kamal onun ən çox sevdiyi, özünə müəllim saydığı tarixi şəxsiyyətdir. Xatırladaq ki, Atatürk Ziya Göyalpı, Göyalp Yusif Akçuranı, Akçura İsmayıl bəy Qaspralını, Qaspralı isə Həsən bəy Zərdabini ustad kimi qəbul etmişdilər. Göründüyü kimi, bu ümumtürk şərəf sıralamasında ilk vəsilə Zərdabidir.

Qədim türk yurdu Şirvanın ucqar Zərdab kəndində doğulmuş, dövrünün sivil dəyərləri ilə yetkinliyə çatmış Həsən bəy Zərdabinin zəngin və çoxcəhətli bioqrafiyasında Azərbaycan mətbuat tarixinin özülü olmuş "Əkinçi" qəzeti xüsusi yer tutur. Aradan 150 il keçsə də "Əkinçi" yazılarında Zərdabinin xalq sevgisindən qaynaqlanan cəsarətli obrazı görünür. Qəzet milli mətbuat tarixi ilə yanaşı, Azərbaycan ictimai fikir tarixində də böyük rol oynamışdır.

Həsən bəy Zərdabi xalqın maariflənməsində, tərəqqisində qəzetə yüksək qiymət verirdi. Odur ki, qəzet buraxmağı qarşısına məqsəd qoyur. Bu böyük insan çox çətinliklə də olsa "Əkinçi"ni nəşr edə bildi. Qəzetin ilk sayı 1875-ci il iyulun 22-də işıq üzü gördü. "Əkinçi" "dərviş kimi nağıl deyə bilməz"di, çünki savadsız, dünyadan bixəbər insanları oyatmalıydı, "onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nik bədindən xəbərdar olub onun əlacının dalınca olsun".

Qəzet birinci sayının proqram məqaləsində yazırdı ki, zəmanə dəyişilməyi tələb edir. "O kəslər ki, həmişə bizə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə gün-gündən tərəqqi edib irəli gedirlər". Zərdabi yeni mütərəqqi həyata çağırırdı insanları. Yazıları oxuduqca biz onun şahidi oluruq.

**– Həsən bəy mətbuatı cəmiyyətin güzgüsü sayırdı. 150 ildən sonra biz bu güzgüdə nələri görürük?**

– Bəli, böyük ustadımız mətbuatı yaxşını yaxşı, pisi pis kimi göstərən ayna kimi görürdü. Zərdabi ictimai həyatın aynası kimi cəmiyyətdəki nöqsan və bəlaları öz səhifəsində təsvir etməklə kifayətlənməyib, onları aradan qaldırmağın yollarını da göstərirdi. Köhnə həyat tərzini pisləyən qəzet xalqı yeniliyə səsləyir, onları elmə çağırırdı. "Doğru sözə" düşmən olan ictimai quruluş belə bir qəzetin nəşrinə 3 illik gərgin mübarizədən sonra icazə vermişdi.

Azərbaycan dramaturgiyasının banisi, böyük mütəfəkkir, özü dediyi kimi, "millətin vəkili"statusu daşıyan Mirzə Fətəli Axundovla Həsən bəy Zərdabi yazışmalarında "Əkinçi"nin ərsəyə gəlmə tarixçəsi, onun məramı barəsdə dəyərli fikirlər əksini tapmışdır. Axundov qəzetin nəşrindən əvvəl 1875-ci il aprelin 21-də Zərdabiyə göndərdiyi məktubda "Əkinçi"nin qarşısında duran vəzifələri müəyyənləşdirərək yazırdı ki, qəzetinizin



əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır.

**– Bu mənada, "Əkinçi" Mirzə Fətəlinin komediyalarındakı kimi xalqla onun dilində danışdı. Tədqiqatçılar "Əkinçi"nin dilini ilk mətbuat üslubu nümunəsi sayırlar.**

– "Əkinçi" fəaliyyət göstərdiyi dövrdə, eləcə də sonralar Həsən bəy dilimizin saflığına çalışmış, maarifçilik mədəniyyətinin tərkib hissəsi olan kitab çapına diqqət yetirirdi. O qəzetdə bu barədə söz açaraq başqa dillərdə olan kitabların ana dilimizə tərcüməsini vacib sayırdı.

"Əkinçi" zəmanəsinin mühüm elmi, texniki, kənd təsərrüfatı, mədəni yenilikləri, nailiyyətləri haqqında müntəzəm məlumat verə bilmiş, öz səhifələrində Azərbaycan ictimai fikrinin inkişafı baxımından faydalı polemika açmış, yeni elmi dünyagörüşünün parlaq nümunələrini vermişdi. Həsən bəy Zərdabi öz yüksək arzularını həyata keçirmək yolunda mübarizədə o dövrün görkəmli ziyalıları Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əhsənül-Qəvaid, Əsgər ağa Görani, Ələkbər Heydəri və başqalarına arxalanırdı.

Həsən bəy Zərdabi qəzetin məzmununun izahını verərkən bildirmişdir ki, orada elmi xəbərlərlə yanaşı, təzə xəbərlər də olacaqdır. O, axıra kimi nizamnaməsinə sadiq qalaraq, elmi və təzə xəbərləri verməklə Azərbaycan xalqının ölkə və dünya hadisələrindən xəbər tutmasına, maariflənməsinə, bir sözlə, xalqımızın dünya xalqları ilə inteqrasiyasına böyük xidmət göstərmişdi. Qəzet dünyada baş verən problem xarakterli xəbərlərdən bolluca istifadə etmişdir. İstifadə olunan xəbərlər fakta söykənirdi. Xəbərlərin coğrafiyası da olduqca geniş idi, dünyanın çox ölkələrini əhatə edirdi.

**– Zərdabi ilk milli qəzetimizi dünya mətbuatının təcrübəsini öyrənərək daha məzmunlu və təsirli nəşr kimi buraxmağa çalışır, məhdud imkanlarla buna nail olurdu.**

– "Əkinçi"də dünyanın aparıcı ölkələrində çıxan qəzetlər haqqında müntəzəm yazılar dərc edən Həsən bəy onların çap mədəniyyəti, yayılması barədə məlumatlar verməklə müəyyən ziyalı dairələrində təəssübkeşlik hissini oyatmağa çalışırdı. Qəzetin "Daxiliyyə"sində dərc olunmuş bir yazıya qısa ixtisarla diqqət yetirək: "Avropa tayfasının hər birinin bir neçə qəzeti və jurnalı olur. Bizim həmçeşmimiz gürcülərin bir neçə qəzetləri var, amma indi Kutaisi şəhərində bir icma bina olub 5 min manat cəm edib ki, gələn ildən həftəlik qəzet çap etdirsin. Məgər bizim tavanalı şəxslərimiz yoxdur ki, belə icma bina edək və nə ki bir, bəlkə 5-10 qəzet çap edək? Bəziləri qəzet oxumağı günah hesab edir ki, güya, qəzet oxumaq şəriətə namüvafiqdir. Bunun qabağında sizə nə deyim? Sizdə taxsır yoxdur. Allah lənət eləsin ol kəslərə ki, bu böhtanı bizim şəriətə deyib, şəriətimizi bihörmət və sizi sərgərdan ediblər!".

"Əkinçi" yaxşı ilə pisi, xeyirlə şəri ayırmağı məsləhət görür, cəmiyyətdə haqq və ədalətin, azadlığın zəfər çalacağına inanırdı. Bu şərtlə ki, insanlar qul psixologiyasından azad olsunlar.

**– "Əkinçi" milli oyanışda xalqın mənəvi dəyərlərindən istifadəyə də ciddi önəm verirdi.**

– Həsən bəyin bu sahədə ədiblərimizdən gözləntisi böyük idi. O, ictimai məzmunu olmayan yaradıcılığı ziyanlı sayırdı, dövrünün mənasız şeirlər yazan şairlərini məzəmmət etməkdən də çəkinmirdi. Zərdabi gül-bülbül aşiqi şairlərdən xalq həyatını əks etdirən şeirlər yazmağı tələb edirdi. Zövqü oxşamayan, heç bir məna kəsb etməyən şeirlərə bəslənən mahnılar Zərdabini çox narahat edirdi.

"Əkinçi" millətin oyanması işində mahnı və nəğmələrin rolunu xüsusi qeyd edərək yazırdı: "Hər tayfanın vətəndaşlıq və millətin keçmişində olan yaman və yaxşı günlərini şərh edən mahnılar olur ki, bu mahnılar ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olur. Amma bizim mahnılara baxan gərək təəssüb eləsin ki, xudavəndə, onları kim və nə üçün düzəldib. Onların çoxunu ki, avam çağırır, heç mənası olmur.

**– Həsən bəyin vəfalı və fədakar silahdaşı olan həyat yoldaşı Hənifə xanım Abayeva – Məlikzadə xatirələrində yazır ki, Zərdabi təkbaşına bir neçə adamın işini görürdü. Bu fədakarlıq onun Vətəninə, xalqına bəslədiyi məhəbbətdən irəli gəlirdi. O vaxtlar Bakıda olmuş fransız jurnalisti də Zərdabinin fədakarlığına heyran qalaraq "Siz əsl qəhrəmansınız", "Siz öz xalqınızı çox istəyirsiniz" demişdi.**

– Böyük mütəfəkkir Əli bəy Hüseynzadə isə milli mətbuatımızın banisi Zərdabinin əsas amalının nədən ibarət olduğunu belə ifadə etmişdi: "Aləmi - islam bir qaranlıq içərisində qaldığı zaman Həsən bəy Zərdabi əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışırdı. Bu məşəl "milli oyanışa, tərəqqiyə, istiqlala yol açan maarif işığı idi". "Əkinçi" qəzetinin Azərbaycan xalqı qarşısında xidmətləri olduqca böyükdür. Qəzet mübariz ideyalar yayır, mülkədar - bəy ağalığına qarşı çıxır, ictimai şüuru formalaşdırırdı. 1877-ci ilin mart ayında çıxan 6-cı sayında Azərbaycan bəylərini, onların puldan başqa ayrı qayğıları olmadığını, günlərini eyş-işrətlə keçirdiklərini kəskin tənqid edirdi. Qəzet yazırdı ki, "yeyib, içib, geyinib, durub-oturmaqla özlərini xaricilərə oxşadıb, əslən elmdən bixəbər" olan bu ağalar "xalqın xoşbəxtlik fikrini çəkməzlər".

**– Maarifçilik mövzusu qəzetin ən çox müraciət etdiyi sahə idi. Təsadüfi deyil ki, "Əkinçi" deyəndə, biz ən çox onun maarifçilik missiyasını qabardırıq və qeyd edirik ki, qəzet daha çox maarifçilik işi üçün həyata atılmışdı.**

– Bu da təbiidir. O dövrdə zərərli adət və ənənələrinin girovuna çevrilmiş müsəlmanları oyatmaq lazım idi. Məmməd Əmin Rəsulzadə Həsən bəyin dəfn mərasimindəki nitqində demişdi: "Camaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? - maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini bilər".

Həsən bəy gənclərə müraciət edərək çətinliklərdən qorxmamağa çağırırdı. O, bütün ümidini gənclərə bağlayırdı. Bilirdi ki, Azərbaycanın gələcəyini məhz gec-tez bu elmli gənclər təmsil edəcək və millətin maraqlarını müdafiə edəcəklər: "Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim Vətən qardaşlarımız ilə üns tutmaq çətindir, siz danışdığınızı onlar başa düşməyib əfalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər ... qoy şüəralar sizi həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişəkk gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq".

**– Təəssüf ki, bəzi ədabaz, özünü dahi hesab edən yazarlar "Əkinçi"nin Azərbaycan jurnalistikası tarixindəki rolunu, Həsən bəy Zərdabinin müqəddəs missiyasını düzgün qiymətləndirmək istəmir, onu əkindən, tövlədən yazan qəzetçi kimi qələmə vermək istəyirdilər. Yaxşı ki, onlar vaxtında yerlərində oturdular, bəziləri isə peşman olub üzrxahlıq etdilər.**

– Belə düşünənlər qəzetin adının "Əkinçi" olmasını əsas gətirirlər. Bu, yanlış fikirdir. Unutmaq olmaz ki, o vaxt qəzet buraxmaq, xüsusilə də müsəlmanlar üçün çətin idi. Elə buna görə də Həsən bəyə məsləhət görürlər ki, qəzeti "Əkinçi" adlandırsın ki, onun çapına icazə ala bilsin. O, bu barədə yazırdı: "Mən ona (Staroselski nəzərdə tutulur) dərdimi deyəndən sonra ... məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyam ki, guya məhz əkin və ziraətdən danışacaq". Əslində isə Həsən bəy kənd təsərrüfatı ilə yanaşı, xalqın mədəni səviyyəsini və onu maarifləndirməyi qarşısına məqsəd qoymuşdu.

"Əkinçi" az yaşadı, cəmi 56 sayı işıq üzü gördü. Lakin buna baxmayaraq, təkcə Azərbaycanda deyil, Rusiya müsəlmanlarının həyatında da böyük rol oynadı, "onun milli mətbuat tarixində açdığı yol, yaratdığı ənənələr çox uğurlu, uzunömürlü oldu. Azərbaycanın tanınmış ədəbiyyat və mətbuat xadimləri sonralar da "Əkinçi"nin ideyalarını inkişaf etdirdilər.

**– "Əkinçi" haqqında çox deyilib, çox yazılıb. Görkəmli alimlər Abbas Zamanov, Əziz Mirəhmədov, Ziyəddin Göyüşov, İzzət Rüstəmov, Nazim Axundov, Vəli Məmmədov və başqaları Zərdabi və onun "Əkinçi" qəzetini müxtəlif aspektlərdən tədqiq etmişlər. Lakin milli mətbuatımızın qaranquşu "Əkinçi"dən hələ çox öyrənməliyik.**

– Mətbuatımzın ağsaqqalı, professor Şirməmməd Hüseynov məqalələrinin birində yazırdı ki, "Əkinçi" qəzetinin ənənələrindən təkcə qələm ustaları deyil, hamımız yenidən öyrənməliyik. O, əsl xalq demokratik mətbuatının nümunəsi kimi bu gün də, heç şübhəsiz, sabah da yeni biliklər və yeni təcrübə mənbəyi olaraq qalacaqdır.

Bəli, əminliklə deyə bilərik ki, alim, böyük maarifçi, jurnalist Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuatımızda "Əkinçi"nin ideyaları bu gün də yaşayır və heç zaman unudulmayacaq.

*Çapa hazırladı:*
*Tahir AYDINOĞLU*
*XQ*

# Milli media və teleməkanda müasir çağırışlar

**Milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin "Əkinçi"ni yaratdığı 22 iyul 1875-ci ildən 150 il keçir. Həmin tarix müstəqillik illərində, haqlı olaraq, milli mətbuat günü kimi qeyd edilir.**

"Əkinçi"dən sonrakı illərdə fasilələrlə başqa dövri nəşrlər də fəaliyyət göstərib. XX əsrin əvvəllərində və sovet dövründə çap mediası inkişaf edərək yüksək peşəkarlıq səviyyəsi qazanıb.1926-cı ildən efir jurnalistikası adlanan radioyayım ölkəmizdə də fəaliyyətə başlayıb. 1956-cı ildə Azərbaycanda teleyayıma da start verilib. İnternet yayım texnologiyası kütləviləşəndən sonra isə ölkəmizdə onlayn jurnalistika da sürətlə inkişaf edir. Göründüyü kimi, "Əkinçi" ilə başlayan milli mətbuatımız sonradan radio, televiziya və hələlik internet platformalarında vətəndaş jurnalistikasına qədər yol keçib.

Radio ötürülməsinə əsaslanan, lent yazısı texnologiyası, fotoelektrik çevrilmə və tranzistor texnologiyası, rəngli şəkil texnologiyası, peyk texnologiyası və rəqəmsal texnologiya kimi ən yaxşı müasir texnologiyaları mənimsəyərək inkişaf edən televiziya, sözsuz ki, bu gün də inkişaf yolundadır. Qloballaşmanın ən dərin təzahürü KİV şəbəkələri kontekstində fərdlər və bütövlükdə dünya, xalqlar və ölkələr arasında sıx münasibətlərin formalaşmasıdır. İnternet resurslarının sürətlə həyatımıza daxil olmasına baxmayaraq, müasir televiziya zəmanəmizin ən qabaqcıl kütləvi informasiya-mədəniyyət vasitəsinə çevrilmiş və bu istiqamətdə işini davam etdirir.

Müasir televiziya mediası hələ də zəngin, çoxşaxəli və çoxölçülü kompleksi olmaqla kütləvi kommunikasiya vasitəsi və dəyər daşıyıcılarının ən mühüm komponenti hesab olunur. O, nəinki bütün zamanların cəmiyyətlərlərində ən etibarlı informasiya daşıyıcısı, həmçinin sosial durumun barometri kimi qəbul edilir.

Bu yazıda müasir mühitdə TV-nin nə dərəcədə aktual olduğunu araşdırmamıza başlamazdan əvvəl onu xatırladaq ki, sürətlə dəyişən media mənzərəsində Azərbaycan telekanalları rəqəmsal mühitə assimilyasiya olunur. Bu isə o deməkdir ki, yayım proqramlarının xətti proqramlaşdırılması "yaxın zamanlarda olduğu kimi", bir o qədər də aktual görünmür. O faktı isə hər bir televiziya meneceri etiraf etməyə borcludur ki, informasiya istehlakçısının maraq dairəsini nə qədər öyrənə biliblər? Mübahisəsiz qəbul edilən həqiqətlərdəndir ki, günümüzün statistik internet istifadəçisi sutka ərzində saysız-hesabsız videolara baxır.

Onu qeyd edək ki, AzTV-nin proqram siyasəti diqqət və anlayış tələb edən sosial-siyasi əhəmiyyətli hadisələrin diqtəsi ilə formalaşır. Həmin məqsədə çatmaq üçün televiziyanın texniki və funksional təkamülünü izləməklə sosial şəbəkələrdə televiziya mediasının yaranmasına nəyin səbəb olduğunu və inkişaf tendensiyalarını proqnozlaşdıra bilmək, televiziyalar arasında oxşarlıq və əsas fərqləri müəyyənləşdirərək nəticələri perspektiv fəaliyyətimizdə tətbiq etmək, mövcud yerli və xarici analoji seqmentlərdə monitorinqlərin aparılmasını metodiki olaraq həyata keçirmək qaçılmazdır.

Sosial təfəkkürdə televiziya istehsalının böyük əksəriyyətində məzmunun aşağı səviyyədə olmasından narahatlıq ifadə olunur, digərləri isə televiziyanın sosial şəbəkə mediasından geriqalma riski barədə fikirləşirlər. Nəticədə neçə illərdir qaçılmaz yeniliklərlə "əbədi funksionallıq qaynağı" olan klassiklər arasında müasir televiziyanı inkişaf tendensiyaları ətrafındakı "Nə etməli?" sualı aktual olaraq qalır. Həm kütləvi kommunikasiya tədqiqatçıları, həm də müasir televiziya kanallarında çalışan praktiklər arasında mübahisə və müzakirələrə səbəb olan bu sualın hər iki tərəfdən eşidilən cavabları nə qədər arqumentli səslənsə də, yaranmış situasiyada dominantlıq ab-hava yaratmaqdan uzaq görünür.

Müasir telekanalların proqramlaşdırılması prinsiplərinin dəyişdirilməsi, dominantlıq yayım şəbəkəsinin strukturlaşdırılmasında reytinq yanaşması siyasətində media bazarına əsaslı təsir edən tendensiyaların dəyişməsi qaçılmazdır. O dəyişilkliklərdən yayınmaq intuitiv olaraq ortaya çıxan gerçəklik effektini saxlayır və bunun bariz ifadəsinin necə baş verdiyini 2026-cı ildə yetmiş yaşını qeyd etməyə hazırlaşan Azərbaycan Televiziyasının nümunəsində müşahidə edilir.

"Böyük dövlət xadimlərinin fəaliyyət izi hər bir xalqın həyatının bütün sahələrində özünü göstərir"- deyimini xatırlatmaqla onu qeyd etmək yerinə düşər ki, Ana televiziyamızın inkişafında yaddaqalan hadisələr ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmə düşür. O vaxtkı Azərbaycanın ictimai-siyasi və mədəni həyatında yeni texniki vasitə olaraq daxil olan Azərbaycan Televiziyası təkcə Azərbaycan xalqını keçmiş şərəfli tarixinin ən parlaq səhifələrinin təbliği ilə məşğul olmur, həm də milli-mənəvi dəyərlərimizin, yetişən gəncliyin şüurunda özünə yuva qurmasında başlıca missiyanı yerinə yetirirdi.

Azərbaycan Televiziya və Radiosu keçdiyi yolda qazanılan zəngin təcrübəsi ilə yaratdığı, milli dəyərlər, dövlətçilik təfəkkürü əsasında yaradılmış məktəbə çevrilib və bu gün də ölkənin televiziya məkanında aparıcı rolunu saxlamaqdadır. İstər özünün maddi-texniki bazasının zənginliyi, istərsə də uzun illərdən bəri formalaşan ən yaxşı ənənələr əsasında yetişən peşəkar yaradıcı heyəti ilə AzTV rəngarəng mövzuları, təqdimat formaları ilə seçilən, teleməkanda öz auditoriyasını qazanan, gizlətmədiyi iddiaları ilə inkişaf yolunda yeni addımlar atan, gündən-günə mövqelərini möhkəmləndirməkdə olan quruma çevrilməkdədir.

Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin bazasında 2009-cu il fevral ayının 1-də yaradılan "İdman", 2011-ci il fevral ayının 14-də təsis olunan "Mədəniyyət" telekanallarının fəaliyyətinin, xüsusilə, son illərdə Azərbaycan Televiziyasında aparılan islahatların nəticəsidir ki, onun efirində təqdim edilən, müxtəlif formatlarda və aktual mövzularda hazırlanan proqramlar nəinki tamaşaçıların maraqla qarşıladıqları, həmçinin etimad göstərdiyi verilişlərə çevrilib.

1926-cı ildə yaradılan, Şərqin ilk radiosu olan Azərbaycan Radiosu və 1941-ci ildə




yaranaraq məhsuldar yaradıcılıq yolu keçən Beynəlxalq Radio fasiləsiz yayım rejimində işləməklə bərabər, "YouTube" üzərindən də canlı yayımlanmaqdadır. Bu sırada İctimai-siyasi proqramlar studiyasının hazırladığı, ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda baş verən aktual ictimai-siyasi hadisələrin təhlil olunduğu "Həftə" ölkədə baş verən diqqətçəkən məsələlər üzərində qurulan və aparıcıların qonaqlarla birlikdə baş verən hadisəni canlı olaraq müzakirə olunduğu "Hədəf" və digərləri ancaq informativ deyil, həm də maarifçilik yükü olan proqramlardandır.

Təkcə televiziya tamaşasının yayım kanalı deyil, həm də istehlakçının bu məzmunla münasibətinin forması dəyişir. Əslində telekanalların yeni yayım paradiqması formalaşır. İnternet yayımı meydana çıxır, yəni televiziya məzmununun yeni kommunikasiya prinsipləri əsasında internetdə onlayn çatdırılması prosesinin iştirakçısına çevrilirik. Azərbaycan telekanallarının internet yayımının eksperimental mərhələdən keçməklə çox vacib kütləvi informasiya vasitələri seqmenti kimi meydana çıxması buna görədir ki, adi qarşılanır.

Eyni zamanda, hər bir telekanal internet yayımının həyata keçirilməsinin xüsusi səbəblərini görməklə yanaşı, onun inkişafı üçün bir çox motivlər yaradır və bu missiyanı Azərbaycan Televiziyası uğurla aparır. Güman etmək lazımdır ki, yaxın gələcəkdə genişzolaqlı internet texnologiyalarının inkişafı qlobal şəbəkənin yayım keyfiyyəti ilə alternativ kanallar arasındakı sərhədləri siləcək. Bu, şübhəsiz ki, televiziya yayımının yeni inkişaf səviyyəsinə gətirib çıxaracaq və ona yeni perspektivlər verəcəkdir.

Son olaraq qeyd edək ki, nə cür olmasından asılı olmayaraq, televiziyanın sosial şəbəkə seqmentlərində yeri və aktuallığı günümüzün əsas çağırışına çevrilib. Hər bir televiziya üçün sosial dünyanın inkişafı ilə bağlı vəziyyəti düzgün qiymətləndirməmək, sosial şəbəkə platformalarının müasir insanın həyatındakı rolunu qəbul etməmək, sadəcə olaraq, mövcud olmaq perspektivivini itirəcək qədər riskli davranışdır və AzTV öz fəaliyyətini bu gerçəkliyin diqtəsi əsasında qurur.

*Elməddin QULİYEV,*
*"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin şöbə rəisi*

Arxeoloji təqdimat

# “Zərgərpalan hamamı” mədəni irsə qaytarıldı



**Bakının “Bayırşəhər” adlanan tarixi hissəsində azərbaycanlıların yaşadığı məhəllədə XIX əsrdə tikilmiş milli hamam sovet dövründə köhnəliyin qalığı kimi unutdurulub və zaman keçdikcə sıradan çıxıb. Baxımsızlıqdan bərbad vəziyyətə düşmüş, bir hissəsi qalın torpaq və zibil altında qalmış nadir arxitektura nümunəsini arxeoloq və memarlarımızın birgə layihəsi yenidən həyata qaytarıb.**

Sovet dövründən əvvəl “Zərgərpalan” adlanmış küçənin adı ilə tanınan tarixi abidənin konservasiya işlərindən sonra alimlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə açılışı oldu. Aşkara çıxarılmış memarlıq obyektində aparılan arxeoloji işlərin rəhbəri, AMEA Arxeologiya və Antropologiya İnstitutunun islam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Qafar Cəbiyev bildirdi ki, hamam sovet zamanı emalatxanaya çevrildiyindən və onillərlə baxımsız qaldığından bərbad vəziyyətə düşmüşdü. “Miras” İctimai Birliyinin sifarişi əsasında təmsil etdiyi qurumun, Memarlıq və İnşaat Universitetinin mütəxəssislərinin və italiyalı professor Luici Skrinzinin zərgər dəqiqliyi ilə apardıqları bərpa-konservasiya işləri “Zərgərpalan hamamı” əvvəlki vəziyyətinə qaytarılıb. Abidə mədəni məqsədlərlə istifadəyə yaralı vəziyyətə gətirilib.

Tarixi abidə ilə ətraflı tanışlıq zamanı professor Qafar Cəbiyev qeyd etdi ki, tikili 1899-cu ildə yerli sahibkarların vəsaiti hesabına inşa olunub. Müstəqillik dövründə tikili özəlləşdirilsə də, dövlət qeydiyyatında olduğundan onu ictimai istifadəyə qaytarmaq qərara alınıb. Xeyriyyəçi sahibkar Əli Əliyevin “Miras” İctimai Birliyinə müraciəti əsasında burada ilkin arxeoloji ekspertiza aparılıb. Fəlsəfə doktorları Fariz Xəlilli və Elmira Abbasova abidəni dərindən tədqiq ediblər.

Alim əlavə etdi ki, hamamın əsas strukturu giriş otağı, iki əsas salon və onlara bitişik otaqlardan ibarətdir. Arxeoloji qazıntılar zamanı otaqların hər birində maddi-mədəniyyət nümunələri, konstruksiya qatları və memarlıq elementləri aşkarlanıb. Abidədə Şərq memarlığının elementləri (tağlar, günbəzlər, səkilər, fəvvarələr) ilə yanaşı, Avropa memarlıq məktəbinin bəzi xüsusiyyətləri də müşahidə olunur. Konservasiya işləri zamanı İtaliya texnologiyasından istifadə olunub və abidənin orijinallığı maksimum şəkildə qorunub.

Açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli söylədi ki, son illərdə Prezident İlham Əliyevin milli elmə və mədəni irsə müstəsna diqqət və qayğısı və müstəqil Azərbaycan dövlətinin prioritetlərinə uyğun aparılan islahatlar arxeologiyamızı da yeni inkişaf yoluna çıxarıb. Ölkəmizin müxtəlif bölgələrində yeraltı tariximizin öyrənilməsi istiqamətində bir sıra ekspedisiyalar fəaliyyət göstərir. AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu bölgələrdə apardığı geniş arxeoloji qazıntılarla yanaşı, paytaxtın mərkəzindəki bu abidədə də əsaslı tədqiqat və konservasiya aparıb.

AMEA rəhbəri daha sonra dedi ki, bu qiymətli memarlıq nümunəsi ölkəmizin tarixini, memarlığını, mədəniyyətini əks etdirməklə yanaşı, mədəni irsimizi tanıdan və turizm marşrutunu zənginləşdirən obyektə çevrilmə önəmi də daşıyır. Hamam binasının yerləşdiyi ərazidə, Bakının tarixi məhəllələrində və qədim tarixi olan ətraf qəsəbələrində arxeoloji tədqiqatlar daha da genişləndirilməlidir.

Milli Məclisin deputatı, tarixçi alim Vasif Qafarov “Zərgərpalan hamamı”nın tarixi-mədəni sərvətimizin bir parçası olduğunu və yenidən həyata qaytarılmasının tariximizə sahib çıxmaq baxımından vətənpərvərlik və elmi fədakarlıq örnəyi olduğunu bildirdi. SEBA Azərbaycan, Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərova abidənin həyata qaytarılmasını milli irsimizə sahib çıxmaq və bu maddi-mənəvi sərvəti zənginləşdirmək işinə layiqli töhfə kimi dəyərləndirdi.

“Miras” İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli və professor Hidayət Cəfərov “Zərgərpalan hamamı”nda aparılan konservasiya işləri, abidənin tarixi barədə məlumat verdilər. Sahibkar Əli Əliyev tarixi hamamın elmi əsasla və peşəkarlıqla Azərbaycan mədəniyyətinə qaytarılmasına görə alimlərə minnətdarlığını bildirdi.

*Tahir AYDINOĞLU*
*XQ*

# Leyla Əliyeva Azərbaycanda təbiətin mühafizəsi fotosərgisinin açılışında



**İyulun 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Dənizkənarı parkda Azərbaycanın təbiətin mühafizəsi sahəsində fəaliyyətinin 100 illiyinə həsr olunmuş “Milli Parklar – Azərbaycanın 12 Möcüzəsi” fotosərgisinin açılış tədbirində iştirak edib.**

IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən sərgi ölkəmizin unikal biomüxtəlifliyini əks etdirən xüsusi mühafizə olunan ərazilərin, milli parkların təbiətini, zəngin florasını və faunasını fotoobyektiv vasitəsilə nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycan ərazisində təbiətin sistemli qorunmasına 1925-ci ildə ilk dövlət qoruğu olan Göygöl təbiət qoruğunun yaradılması ilə başlanılıb. Hazırda ölkəmizdə 12 milli park, 9 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Milli parklar Azərbaycanın təbiətinin mühafizəsinə dair dövlət siyasətinin əsas sütunlarından biridir. Bu siyasətin daha geniş ictimaiyyətə çatdırılması məqsədilə Leyla Əliyevanın təşəbbüsü ilə 2013-cü ildə “Azərbaycanın 7 Möcüzəsi” kinolayihəsinə start verilib. Milli parkların sayı artdıqca, layihənin adı da dəyişərək “Azərbaycanın 12 Möcüzəsi”nə çevrilib. Son olaraq, Prezident İlham Əliyevin 2025-ci il 14 iyul tarixli Sərəncamı ilə Azərbaycanda daha iki yeni milli park – Axar-Baxar və İlisu milli parkları yaradılıb.

Layihənin təşəbbüskarı Leyla Əliyevanın rəhbərliyi ilə səkkiz sənədli film çəkilib, yüzlərlə videomaterial və fotoşəkil sosial şəbəkələrdə milyonlarla izləyici tərəfindən maraqla qarşılanıb. Bu fotosərgi həmin layihənin çoxsaylı və təsirli nəticələrindən biridir. Sərgidə təqdim olunan şəkillər təkcə Azərbaycanın təbiət möcüzələrini nümayiş etdirmir, həm də ekoloji maarifləndirmə baxımından mühüm rol oynayır. Burada tamaşaçılar təbiətin qorunmasının nə qədər vacib olduğunu hiss edir, insanın təbiətə olan məsuliyyətini daha dərindən anlayırlar.

“Azərbaycanın 12 Möcüzəsi” adlanan layihəyə daxil olan milli parklar ölkəmizin müxtəlif coğrafi bölgələrini və ekosistemlərini əhatə edir. Bunlara Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Ağgöl Milli Parkı, Şirvan Milli Parkı, Hirkan Milli Parkı, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, Şahdağ Milli Parkı, Göygöl Milli Parkı, Samur-Yalama Milli Parkı, Qızılağac Milli Parkı, Axar-Baxar Milli Parkı və İlisu Milli Parkı daxildir. Bu parklar Azərbaycanın zəngin təbii irsinin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Dənizkənarı parkda yay boyunca davam edəcək fotosərgidə təqdim olunan şəkillər tanınmış fotoqraflar – İqor Bışnyov, İlya Bışnyov, Natalya Teterevskaya və Nikita Bışnyov tərəfindən çəkilib.

Bir layihənin təəssüratı

# Vikimediaçıların açıq bilik təlimi

**Mayın sonu, iyunun əvvəlində Qazax şəhərində möhtəşəm bir layihə – “2025 VikiGənclik düşərgəsi” təşkil olunmuşdu. Üstündən ayyarım keçsə də təəssüratları köhnəlməyən həmin layihədə iştirakımdan bəhs etmək istəyirəm.**



Bu layihə “Azərbaycan vikimediaçıları” istifadəçi qrupu tərəfindən təklif edilmiş, eləcə də Gənclər və İdman Nazirliyinin dəstəklədiyi “Açıq bilik üçün birlikdə yazırıq” layihəsi çərçivəsində təşkil olunmuşdu. Təlimdə 20-si təcrübəli, 70-dən çoxu yeni olmaqla, ümumilikdə, 100-ə yaxın iştirakçı bir araya gəlmişdi. Əsas məqsəd Azərbaycanda vikimedia hərəkatını gücləndirmək, fəal istifadəçilər arasında əməkdaşlığı artırmaq, yeni könüllülər cəlb etmək, eləcə də multikultural zənginliyə malik Qazax rayonu barədə Vikipediyada yeni məqalələr yaratmaqdan ibarət idi.

Qeyd etmək lazımdır ki, gənclər təcrübəli vikipediyaçıların keçirdikləri təlimlər vasitəsilə burada məqalə yazmaqla bağlı bütün detallar üzrə bilik və bacarıqlar əldə etməklə Vikimedianın digər layihələri ilə də ətraflı şəkildə tanış oldular. Bununla da layihənin həyata keçirildiyi müddət ərzində yazdıqları məqalələrlə Azərbaycan Vikipediyasının daha da zənginləşməsinə öz töhfələrini vermiş oldular.

Düşərgə boyunca gənclər hər biri 7 nəfərdən ibarət olmaqla 13 komandaya ayrıldılar. Hər komanda qrup və fərdi olmaqla məqalələr hazırlamağa çalışır, yeni qeydlər üzərində işləyirdilər. Layihəni fərqləndirən məqamlardan biri isə iştirakçılar arasında azərbaycanlılarla birlikdə Özbəkistandan olan vikipediyaçıların da yer alması idi. Bu qardaş ölkənin təcrübəli vikipediyaçıları bir yandan yeni istifadəçilərlə öz bilik və təcrübələrini bölüşür, digər yandan isə yeni məqalələr hazırlayaraq Azərbaycan Vikipediyasının inkişafına dəstək olurdular.

Həmçinin bu müddət ərzində iştirakçıların asudə vaxtlarının səmərəli keçməsi üçün intellektual oyunlar və fərqli fəaliyyətlər təşkil edilirdi. Düşərgənin maraqlı məqamlarından biri isə layihənin bir gününün xüsusi olaraq Qazax rayonunun tarixi, mədəni və təbii məkanları ilə yaxından tanışlığa həsr edilməsi oldu. Bu gəzinti ərzində gənclər Qazaxın füsunkar təbiəti, möhtəşəm tarixi ilə tanış olmaqla yanaşı, məqalələri üçün yazılı və vizual materiallar toplamağa çalışdılar.

“Səməd Vurğun Poeziya evi”, “Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu”nun “Damcılı” və “Göyəzən” filialları, şəhidlərin xatirəsinə həsr olunan memorial kompleksi, “Qazax Tarix-Diyarşünaslıq Muzeyi”, Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan da zəngin təəssürat əldə etdik. Mərkəzdə ulu öndərin Qazax rayonuna səfərlərindən ibarət tarixi videokadrlara baxdıq. Muzey gəzintisi əsnasında mənim məqalə mövzum olan və yetərincə mənbə tapa bilmədiyim “Salahlı karnavalı” haqqında qızılı hərflərlə yazılmış xüsusi məlumatlandırıcı bölməni görmək də çox sevindirici oldu.

Növbəti dayanacağımız “Qazax Ədəbiyyat Muzeyi” idi. Burada bizi tanınmış şair, publisist, Əməkdar incəsənət xadimi Barat Vüsal qarşıladı. Ardınca Qazaxın məşhur Mütəfəkkirlər Parkını gəzdik, ADA Universitetinin Qazax filialına yollandıq. Gənclər burada bir yandan Qazax Seminariyasından üzübəri inkişaf tarixçəsi ilə tanış oldular, bir yandan da təhsil müəssisəsinin özəllikləri ilə bağlı ətraflı məlumatlandırıldılar.

Bu möhtəşəm layihənin gerçəkləşməsində ən böyük məsuliyyət və əziyyət isə heç şübhəsiz, Gənclər və İdman Nazirliyinin İnnovativ və İnkişaf Sektorunun müdiri Kənan Kərimovun, dəyərli rəhbərimiz Aidə Aslanova və onun peşəkar komandasının üzərinə düşürdü. Onlar hər bir iştirakçıya fərdi yanaşmaları, həssaslıqları sayəsində bu düşərgə layihəsini uğurla yekunlaşdırmağı bacardılar. Təlimin yekununda iştirakçılar nazirliyin xüsusi sertifikatları ilə təltif edildilər.

Nəticə etibarilə AzVikidə 150 məqalənin yaradılması və Vikianbara 50 fotoşəklin yüklənməsinin hədəfləndiyi bu layihədə qarşıya qoyulan hədəfə çatılması yüksək şəkildə dəyərləndirilməlidir.

*Vaqif ƏMİRASLAN,*
*təlim iştirakçısı*

Daş yadigarlar

# Böyük İpək yolunun karvansara dayanacaqları



**Çindən başlayıb Avropaya qədər uzanan, yalnız əmtəə mübadiləsi deyil, həm də mədəniyyətlərin qarşılıqlı təsir və inteqrasiyası üçün strateji platforma olan Böyük İpək Yolu şəbəkəsi hələ min illər öncə ölkələr arasında mədəni-mənəvi mübadiləyə təsir göstərib. Məhz bu təsirin nəticəsində fəlsəfə, din, memarlıq, incəsənət örnəkləri dünyaya yayılıb.**

Böyük İpək Yolu şəbəkəsində öz mövqeyi ilə seçilən qədim şəhərlərdən biri də Şəki olub. İpəyi ilə məşhur Şəkinin təkcə xanlıq dövrünə nəzər saldıqda məlum olur ki, onun 13 kəndində 202, vassal asılılığında olan Ərəş sultanlığının 2 kəndində 74, Ağdaşın 10 kəndində 206 tut bağı olub. Şəki hələ qədim dövrlərdən karvanların dayanacağına çevrilib. Dünyanın müxtəlif yerlərindən gələn tacirlər Şəki karvansaralarında gecələyib.

Şəki karvansaraları təkcə ticarət obyektləri deyil, həm də müxtəlif sivilizasiyaların qovuşduğu, mədəni ünsiyyətin və qarşılıqlı zənginləşmənin baş verdiyi unikal məkanlar idi. Bu tarixi tikililərin memarlıq üslubu, funksional strukturu və yerləşdiyi coğrafi mövqe sübut edir ki, bu şəhər regionda strateji və mədəni cəhətdən böyük əhəmiyyətə malik olub. XIX əsr mənbələrinə görə, Şəkidə öz memarlıq quruluşu, həcmi və etibarlılığı ilə seçilən 5 karvansara vardı. Günümüzə həmin karvansaralardan yalnız 2-si yadigar qalıb: Yuxarı və Aşağı karvansaralar. Şəkinin tarixi mərkəzində yerləşən bu karvansaralar ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olaraq dövlət tərəfindən mühafizə olunur. Bu abidələr Şəki memarlığının ən xarakterik nümunələri olmaqla yanaşı, fasad kompozisiyası və tərtibatı baxımından da şəhərin vizual simasını müəyyən etmişdir. Öz böyüklüyünə görə xüsusilə fərqlənmiş Şəki karvansaralarından Yuxarı Karvansaranın ərazisi 6000 kvadratmetr, Aşağı Karvansaranın ərazisi isə 8000 kvadratmetrdir. Şəkinin ənənəvi inşaat materialları olan çay daşı və kərpiclə inşa olunmuş Yuxarı Karvansara girişdə yerləşən gümbəzinin böyüklüyü ilə Qafqazın bütün karvansaraları arasında fərqlənir. Bu gümbəzin diametri təqribən 12 metrə çatır və bişmiş kərpiclə hörülüb.

Karvansaralar ticarət yolları boyunca strateji nöqtələrdə inşa edilir və çoxfunksiyalı obyektlər kimi fəaliyyət göstərirdi. Onlar həm ticarət mallarının təhlükəsiz saxlanılması, həm də səyyahların və onların heyvanlarının dincəlməsi üçün nəzərdə tutulmuşdu. Bu binalarda ticarət mallarının saxlanılması üçün geniş anbarlar, heyvanlar üçün tövlələr, səyyahların dincələ biləcəyi otaqlar və ibadət üçün ayrılmış məkanlar mövcud idi. Bu cür karvansaralar səyyahlar arasında sadəcə dayanacaq yeri deyil, həm də müxtəlif mədəniyyətlərin birləşdiyi və ünsiyyət qurduğu mərkəzlər kimi tanınırdı. Tacirlər və səyyahlar burada görüşür, məlumat mübadiləsi aparır, ticarət şərtlərini müzakirə edirdilər. Eyni zamanda, bu məkan ətrafında dərvişlər və səyyahlar hekayələr danışır, şeir və qəzəllər oxuyur, musiqiçilər insanların ruhunu dincəldirirdi.

Şəki yerləşdiyi mövqe və böyük karvansaraları ilə İpək Yolunda yalnızca əmtəə mübadiləsi etməmiş, həm də mədəni, ədəbi, dini və fəlsəfi cəhətdən öz nəsibini almışdır. Şəki Çin çayından, hind qumaşından faydalanmış, hətta dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şəki Xan sarayını bəzəyən rəngarəng şüşələr buraya İpək Yolu vasitəsilə Venesiyadan gətirilmişdir.

Bu gün də qədim İpək Yolunun yadigarları olan Şəki karvansaraları keçmişin sirlərini və tarixi memarlıq üslubunu qoruyaraq əcdadların mirasını gələcəyə qürurla daşıyır. Keçmişdə karvanların gecələdiyi karvansaralar bu gün fərqli ölkələrdən gələn turistləri tarixi memarlıq üslubları ilə heyrətləndirir.

*Zəminə RƏSULOVA,*
*Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

*"Xalq qəzeti" üçün*

# Terrordan azad Türkiyə

## 42 illik mücadilənin uğurlu sonu

**Türkiyənin terrorla mübarizəsi artıq 42 ildir davam edir. Türkiyə Cümhuriyyəti qurulandan bəri ölkə bir tərəfdən hərbi çevrilişlərə, digər tərəfdən isə PKK, FETÖ, DHKP-C və İŞİD kimi müxtəlif terror təşkilatlarının hücumlarına məruz qalmışdır.**

Türkiyədə çevrilişlər təkcə demokratiya və insan haqlarını hədəfə almadı, qardaşı qardaşa qarşı qoydu. Bu, həm də Türkiyənin bölgədə siyasi və iqtisadi baxımdan xarici asılılığını artıran, milli təhlükəsizliyini və iqtisadi inkişafını hədəf alan təxribatlar idi.

Çevrilişlərlə Türkiyənin yolunu kəsə bilməyən xarici qüvvələr, təəssüf ki, məqsədlərinə əsasən qonşularımızın ərazilərində yaratdıqları muzdlu terror təşkilatları ilə çatmaq istədilər. Bir müddət Ermənistanın ASALA terror təşkilatı vasitəsilə xarici nümayəndəliklərimiz və diplomatlarımız hədəf alındı. Türkiyə ASALA-nı öz kəşfiyyat üsulları ilə zərərsizləşdirməyə nail oldu. Ardınca isə PKK terror təşkilatını qurdular.

Yuxarıda qeyd olunan terror təşkilatları 42 il ərzində həm dinc sakinləri, həm də təhlükəsizlik qüvvələrini təhdid edərək böyük acılara və itkilərə səbəb olublar.

Türkiyə bu illər ərzində 15 mini təhlükəsizlik qüvvələrinin nümayəndəsi olmaqla, təxminən 50 min insanını terrorla mübarizədə şəhid vermişdir. Bu mübarizə çərçivəsində aparılan hərbi xərclər 2 trilyon dollar kimi nəhəng rəqəmlərlə ifadə olunur. Bəzi mənbələr 42 illik terror xərclərinin ümumilikdə 3 trilyon dollara çatdığını bildirir.

Son 20 ildə Türkiyə terror bəlasından qurtulmaq üçün əməli baxımdan mühüm addımlar atmışdır. Sərhəddənkənar əməliyyatlar terror təşkilatlarının ölkədaxili fəaliyyətlərini məhdudlaşdırmaqda mühüm rol oynamışdır. Eyni zamanda, terrorun maliyyə mənbələrinin "qurudulması", terror təşkilatlarına qoşulmaların qarşısının alınması və terror təbliğatı ilə mübarizə kimi sahələrdə də əhəmiyyətli işlər görülmüşdür.

Son illərdə Türkiyə təkcə terrorla mübarizə aparmamış, bir çox sahədə, bir sıra ölkələr ilə də mübarizə aparmaq məcburiyyətində qalmışdır. Xüsusilə Qərb dövlətlərinin Türkiyəyə tətbiq etdiyi silah embarqoları səbəbindən "pis qonşu kirayənişini ev sahibi edər" misalı gerçəyə çevrilmiş, Türkiyə sürətlə özünün milli hava, dəniz və quru hərbi texnikasını istehsal etməyə başlamış, müdafiə sənayesini gücləndirmiş və bu sahədə inkişafı davam etdirmişdir. Bu tarixi addımlarla xarici asılılıq əhəmiyyətli dərəcədə azalmış və bir çox sahələrdə yerli istehsal imkanları artmışdır.

Bu gün Türkiyə geniş spektrdə müdafiə məhsulları istehsal edən və bu məhsulları dünyanın bir çox ölkəsinə ixrac edən bir dövlətə çevrilmişdir. Məsələn, Türkiyə müdafiə sənayesində qazandığı uğuru can



Dövlət Baxçalının həmin çox müzakirə edilən və gündəmdə qalmaqda davam edən tarixi çıxışını "Terrordan azad Türkiyə"nin başlanğıc nöqtəsi kimi qiymətləndirmək olar. Əvvəlcə Baxçalının 15 oktyabr 2024-cü ildə partiya qrupunda səsləndirdiyi İmralı çağırışını xatırlayaq. Baxçalı Abdullah Öcalandan PKK-nın terror fəaliyyətlərinə qeyd-şərtsiz son qoymasını və təşkilatın buraxılmasını tələb edərək belə demişdir:

"Tutulub Türkiyəyə gətirilərkən "hər cür xidmətə hazıram" deyən terrorçu başçısı buyursun, terrorun bitdiyini, təşkilatının buraxıldığını birtərəfli qaydada elan etsin. İndi PKK-nın qarşısında 3 seçim var: birincisi, terror fəaliyyətlərini qeyd-şərtsiz dərhal dayandırmaq; ikincisi, silahları ilə

Öcalanın 27 fevral 2025-ci ildə DEM Partiyası heyəti vasitəsilə PKK-ya verdiyi "mən silahın yox, siyasət və ictimai sülhün gücünə inanıram və sizi də bu prinsipi həyata keçirməyə çağırıram" şəklindəki silah qoyma və özünü buraxma çağırışı, Baxçalının mövqeyinin nə qədər vacib olduğunu göstərdi.

MHP lideri Dövlət Baxçalı bu çağırışlarını "Terrordan azad Türkiyə" məqsədinə çatmaq üçün dövlət siyasəti kimi təqdim etdi və PKK-nın silahlı varlığının tamamilə bitməsinin zəruri olması fikrindən heç zaman geri çəkilmədi.

PKK-nın Türkiyə siyasətindəki uzantısı olan DEM Partiyasının bu prosesdəki rolu əsla kiçildilməməlidir. Qəndil, İmralı

olmaqla 30 nəfərlik PKK üzvü terror yuvalarından çıxaraq silahlarını yandırdılar. Bu, simvolik mərasimlə silah qoyduqlarını bəyan etdilər. Bu yeni və pozitiv bir mərhələnini başlanğıcı oldu!

Türkiyə hökuməti bu tarixi prosesi ilin sonuna qədər bütün terrorçuların silahlarını təhvil verməsi ilə yekunlaşdırmaq niyyətindədir. Prezident Ərdoğan bu prosesi "Terrordan azad Türkiyə" hədəfi istiqamətində "tarixi bir müjdə" kimi qiymətləndirib və bu addımın Türkiyənin iqtisadiyyatına, ictimai barışına və regional sabitliyinə böyük töhfə verəcəyini bildirib.

### Bəs PYD/YPG/SGD nə olacaq?

Bəli, artıq PKK məsələsi həll olunub, bəs Suriya ərazisində ABŞ və bəzi ölkələr tərəfindən qorunan PYD/YPG/SGD qüvvələri necə olacaq? Onlar da silahlarını yerə qoyub Suriya dövlətinə təslim olmadıqca, Türkiyə tam mənada terror təhlükəsindən azad olmayacaq.

Bu mərhələdə bizcə PKK-nın davamı olan SGD terror təşkilatına qarşı ABŞ-ın "biz sizə dövlət qurma vədi verməmişik, siz də PKK kimi silahlarınızı qoyun və rəsmi Dəməşqin rəhbərliyi ilə razılaşın" mövqeyi olduqca vacibdir.

"Terrordan azad Türkiyə!". Bu, bölgədə siyasi və iqtisadi baxımdan ən güclü ölkə olan Türkiyə deməkdir! Bu, Türk dünyasının güclənməsi və inkişafı deməkdir!

Hazırda isə "Terrordan azad Türkiyə" istəyənlərlə buna qarşı çıxanların mübahisəsini müşahidə edirik. Türkiyənin düşmənləri, daxili və xarici xainlər, xüsusilə də Rəcəb Tayyib Ərdoğanı sevməyənlər, təəssüf ki, baş verən müsbət inkişaflardan ciddi şəkildə narahatdır və bu proses irəlilədikcə gecələri yata bilməyəcək qədər sarsıntı keçirirlər.

Bir millət – iki dövlət olaraq, Türkiyə terroru bitirməklə, Azərbaycan isə Ermənistana qarşı əldə etdiyi tarixi qələbə ilə çiyin-çiyinə, əl-ələ, könül-könülə siyasi və iqtisadi birlik və həmrəyliklərini ən yüksək səviyyədə qoruyub dünya coğrafiyasında lider dövlətlər olaraq yoluna davam edəcəklər.



Azərbaycanın Qarabağ zəfərində də açıq şəkildə nümayiş etdirmişdir.

### Terrordan azad Türkiyə prosesi necə başlandı?

Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı uzun illərdir terrora qarşı sərt və güzəştsiz mövqeyi ilə tanınır. Son dövrdə Abdullah Öcalanın PKK-ya silaha son qoymaq çağırışı və təşkilatın bu istiqamətdə addımlar atması ilə eyni zamanda, Baxçalının bəyanatları da diqqətçəkən mahiyyət kəsb etdi.

birlikdə dağdan enərək Türkiyə Cümhuriyyəti dövlətinə təslim olmaq; üçüncüsü isə Türk ədalətinin verəcəyi hökmə razı olaraq cəzasını çəkmək."

Dövlət Baxçalının çağırışına ilk dəstək bəyanatları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan gəldi. Ölkə iki yerə bölündü: çağırışı dəstəkləyənlər və əleyhinə olanlar. Müzakirələr günlərlə davam etdi.

Baxçalının bu çağırışları DEM Partiyası heyətlərinin İmralıda Abdullah Öcalanla görüş təşəbbüsləri öncəsində və zamanı gündəmə bomba kimi düşdü. Xüsusilə,

və Ankara arasında adətən diplomatik körpü funksiyası daşıyan DEM heyəti bu günə qədər tarixi prosesə ciddi töhfələr vermişdir. PKK isə 5–7 may tarixlərində keçirdiyi qurultayda özünü buraxmaq və silahları tərk etmək qərarı verərək faktiki olaraq Türkiyə dövlətinə təslim olmuşdur.

Nəhayət, 11 iyul 2025-ci ildə – yeni 42 ildən sonra – İraq Kürd Muxtar Vilayətinin Süleymaniyyə vilayətində, Dukan bölgəsində yerləşən Casena mağarasının (Qəndil) qarşısında özlərini "Sülh və Demokratik Cəmiyyət Qrupu" adlandıran 15-i qadın

*Mövlüd YENİ,*
*Türkiyə Jurnalistlər Konfederasiyasının xarici əlaqələr üzrə baş əlaqələndiricisi*

# Sanksiya diplomatiyası: Avropa İttifaqı "qaz kartı"nı masaya qoyur

**Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı tətbiq edilən sanksiyaların növbəti – 18-ci paketini təsdiqləməyə hazırlaşır. Yeni məhdudiyyətlərin təsdiqi, bir sıra üzv dövlətlər, xüsusilə də Slovakiya ilə aparılan danışıqlar səbəbindən bir ayadək təxirə salınmışdı.**




Slovakiya tərəfi Avropa Komissiyasının 2028-ci ilədək Rusiya qazından tam imtina olunması ilə bağlı planlarına qarşı çıxır və bu qərarın ölkə iqtisadiyyatına mümkün təsirləri ilə bağlı kompensasiya tələb edir. Slovakiyanın etirazları səbəbilə yekdil razılıq formatında təsdiq olunmalı olan sanksiya paketinin müzakirələri ləngidir.

Avropa Komissiyasının rəhbəri, xanım Ursula Fon der Lyayen yeni sanksiyalar paketinin təqdimatında bildirdi ki, Aİ-nin məqsədi Rusiyaya qarşı təzyiqləri gücləndirmək və atəşkəsə nail olmaqdır: "Biz Rusiyaya qarşı təzyiqləri artırırıq. Məqsədimiz aydındır: ən azı 30 günlük tam və qeyd-şərtsiz atəşkəsə çağırış edirik. Rusiya ciddi təkliflə danışıqlar masasına oturmalıdır. Əks təqdirdə, Aİ təzyiqləri davam etdirəcək".

Yeni paket çərçivəsində Rusiyanın enerji sektoru, xüsusilə də neft və qaz ixracı, həmçinin maliyyə sektoru – o cümlədən SWIFT sistemindən daha çox bankın çıxarılması – hədəfə alınır. Eyni zamanda, üçüncü ölkələrin şirkət və banklarına qarşı da ikinci dərəcəli sanksiyalar nəzərdə tutulur. Bu tədbirlərin məqsədi Aİ sanksiyalarının üçüncü tərəflər vasitəsilə neytrallaşdırılmasının qarşısını almaqdır.

Bundan əlavə, Avropa İttifaqı Baltik dənizi dibi ilə keçən "Şimal axını" boru kəmərlərinin istifadəsinə tam qadağa qoymağa hazırlaşır. Yeni qərara əsasən, fəaliyyəti dayandırılmış, lakin texniki baxımdan istifadəyə yararlı olan bir xəttin də işə salınmasına icazə verilməyəcək.

Aİ daxilində hazırda Rusiya qazından mərhələli imtina planı müzakirə olunur. Avropa Komissiyası təklif edir ki, 2026-cı ildən qısa müddətli müqavilələr, 2027-ci ilin sonundan isə uzunmüddətli müqavilələr üzrə qaz idxalına xitam verilsin. Slovakiya və Macarıstan kimi üzv ölkələr bu qərara qarşı çıxır və alternativ təchizat imkanlarının məhdudluğunu əsas gətirirlər.

Plan həllə ki Aİ Şurası və Avropa Parlamenti tərəfindən müzakirə olunur. Bununla belə, Slovakiya tərəfi Aİ daxilində veto hüququndan istifadəyə üstünlük verdiyindən 18-ci sanksiya paketinin təsdiqinə mane olmağa çalışır.

Yeni paket çərçivəsində Rusiya neftinin qiymət tavanının 60 dollardan 45 dollara endirilməsi də nəzərdə tutulur. Bu tədbirin məqsədi Rusiya dövlətinin neft ixracından əldə etdiyi gəlirləri məhdudlaşdırmaqdır. Xatırladaq ki, Aİ və G7 ölkələri 2023-cü ilin fevralından etibarən Rusiya neftinin daşınmasına, sığortalanmasına və maliyyələşdirilməsinə yalnız müəyyən qiymət tavanı çərçivəsində icazə verirlər.

Avropa Komissiyasının rəhbəri qeyd edir ki, hazırda bu mexanizmin effektivliyi azdır və qiymət tavanının yenilənməsi bazardakı dəyişikliklərə uyğunlaşdırılmalıdır: "Rusiya hələ də neft ixracından ümumi gəlirlərinin üçdə birini əldə edir. Biz bu maliyyə mənbəyini məhdudlaşdırmalı və mövcud şəraitə uyğun tədbirlər görməliyik".

Bununla belə, ABŞ administrasiyasının enerji qiymətlərinin artmaması məqsədilə neft embarqosunu sərtləşdirməyə tərəddüd etməsi Aİ-nin bu sahədəki təşəbbüslərinə bir qədər məhdud çərçivə yaradır. Prezident Donald Trampın mövqeyi qlobal enerji bazarında sabitliyin qorunması baxımından əhəmiyyətli sayılır.

Bir sözlə, yeni sanksiya paketi Rusiyaya qarşı tətbiq edilən məhdudiyyətlərin daha da dərinləşdirilməsini nəzərdə tutsa da, Aİ daxilində fikir ayrılıqları və enerji asılılığı kontekstində bu qərarların həyata keçirilməsi mürəkkəb diplomatik balans tələb edir. Bununla belə, Aİ rəhbərliyi Rusiyanın hərbi fəaliyyətlərinə cavab olaraq vahid mövqedə qalmaqda israrlıdır və sanksiya mexanizmlərinin effektivliyini artırmağa çalışır.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# "Kukla aktyorlar" istirahətə gedirlər



**Azərbaycan Dövlət Kukla Teatrında 93-cü mövsümün bağlanışı və milli mətbuatın 150 illiyi münasibətilə media nümayəndələri üçün təsis olunmuş "Teatrın dostu" mükafatının təqdimolunma mərasimi keçirildi.**

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə XQ-yə mövsüm ərzində kollektivin teatra qazandırdığı uğurlardan danışarkən dedi:

– 2025-ci il kollektivimiz üçün olduqca zəngin olub. İlk növbədə, Türkiyədə IV Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalında iştirak etdik. Teatr heyəti aprelin 21-dən 26-dək Türkiyədə səfərdə oldu, tamaşaçılara "Cırtdanın Türkiyə macəraları" adlı tamaşa-konsert təqdim olundu.

Daha sonra 20-26 may 2025-ci il tarixlərində Qazaxıstanın Almatı şəhərində "Orteke" VII Beynəlxalq Kukla Teatrları Festivalında "Melisa" tamaşası ilə çıxış etdik. Təmsilçilərimiz 10-16 iyun tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən II Beynəlxalq "DEMMENİFEST - 2025" Kukla Teatrları Festivalında da uğurlara imza atdılar.

Daxili qastrol proqramı çərçivəsində Göyçay, İsmayıllı, Lənkəran şəhərlərinə və işğaldan azad olunmuş torpaqlarımıza qastrol proqramlarını reallaşdırdıq. Beləcə, Zəngilan, Laçın, Şuşa, ardınca Füzuli və Ağdam şəhərlərində də fərqli tamaşa-konsert proqramları ilə çıxışlar etdik.

Teatrın direktoru ilin axırınadək daha 3 səhnə əsərinin hazırlanacağını və daha 2 beynəlxalq festivalda iştirak edəcəklərini də diqqətə çatdırdı.

Sonda teatrın baş direktoru Rəşad Əhmədzadə tərəfindən Milli Məclisin deputatları və media təmsilçilərinə "Teatrın dostu" rəmzi mükafatı təqdim olundu.

Tədbir musiqi nömrələri ilə davam etdi. Xatirə şəkilləri çəkildi.

*Fidan SALMANOVA*
*XQ*


## "Naftalan –Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

25 avqust 2025-ci il saat 11.00-da "Naftalan –Avtonəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1." Naftalan –Avtonəqliyyat" ASC-nin 2024 –cü il üçün illik maliyyə hesabatının müzakirəsi və təsdiqi.

2. "Naftalan–Avtonəqliyyat"ASC-nin idarə heyətinin sədrinin seçilməsi.

3. "Naftalan –Avtonəqliyyat"ASC-nin idarə heyətinin qarşısında duran plan və göstərişlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 09.00-dan-18.00-dək Naftalan şəhəri,İ.Nəsimi küçəsi 10 nömrəli ünvana ASC-nin inzibati binasına müraciət edə bilərlər.

*İdarə heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 145 (30839) 17 iyul 2025-ci il, cümə axşamı

# Süni intellekt həkimlik edir...

**Süni intellektin səhiyyəyə inteqrasiyası tibb sahəsində son illərin ən diqqətəlayiq yeniliklərindəndir. Bu texnologiya tibbi xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, onların daha əlçatan olmasına və səhiyyənin dayanıqlılıq səviyyəsinin yüksəlməsinə töhfə verir. Artıq dünyanın bir çox ölkələrində süni intellekt sistemləri tibbi müalicə proseslərinin ayrılmaz hissəsinə çevrilir.**



Tətbiq imkanları geniş olan bu texnologiya diaqnostikadan cərrahiyyəyə, tibbi məsləhətləşmələrdən reabilitasiya proseslərinə qədər sahələri əhatə edir. Süni intellektin səhiyyədə ən diqqətçəkən tətbiq sahələrindən biri vaxtında qərar verməkdir. Bu, pasiyentin təqdim etdiyi simptomlar, tibbi tarixçə və analiz nəticələri əsasında xəstəliyin diaqnozunu formalaşdırmaqda həkimə yardım edir. Sürətli və dəqiq analiz bacarığına malik olan süni zəka səhvlərin sayını azaldır, xəstənin vaxtında düzgün müalicə almasını təmin edir.

Qeyd edək ki, süni intellektin ən mühüm tətbiq sahələrindən biri də cərrahiyyədir. Beyin cərrahiyyəsi dəqiqlik tələb edən və zəhmətli əməliyyatdır. Belə ki, cəmi bir millimetrlik şişi yanlış çıxarmaq xəstəni dərhal öldürə bilər. Beyinin mərkəzində yerləşən hipofiz vəzini zədələməkdən də çəkinmək vacibdir. O, orqanizmin bütün hormonlarını idarə edir və onunla bağlı hər hansı problem korluğa səbəb olur. Ona görə də əməliyyat dəqiqlik tələb edir. Bu sahədə robot texnologiyaları köməyə gəlir və yüksək dəqiqliklə müdaxilə imkanları yaradır. Ənənəvi cərrahiyyə ilə müqayisədə, robot yardımlı əməliyyatlar daha az invaziv olur, bu isə pasiyent üçün daha az qan itkisi və qısa bərpa müddəti deməkdir. Çünki əməliyyatdan əvvəl süni intelekt sistemi cərrahın tibbi qeydlərini analiz edir, oxşar hallar üzrə mövcud məlumat bazasını araşdırır və cərrahın qərarvermə prosesinə real vaxtda yardım edir.

Süni intellekt həm də toxuma hüdudlarını daha dəqiq müəyyənləşdirmək, ən uyğun cərrahi alətləri seçmək və əməliyyatın gedişində riskləri qabaqcadan proqnozlaşdırmaq kimi üstünlüklərə malikdir. Artıq süni intellektin iştirakı ilə beyin əməliyyatları uğurla həyata keçirilir.

Onu da qeyd edək ki, hazırda xərçəngin patoloji görüntülərini ətraflı "oxuya bilən" çoxyönlü süni intellekt modeli fəaliyyət göstərir. Belə ki, bu modeli "SenseTime" şirkətinin tədqiqatçıları ərsəyə gətiriblər. Onlar bunun üçün təxminən 300 min rəqəmsal patoloji təsvirdən istifadə ediblər. Çoxyönlü süni intellekt modeli 20-dən artıq orqanı analiz edə bilir. Həmçinin buraya xərçəng təsnifatı, lezyonların tanınması, çoxsaylı xərçəng və biomarkerlərin qiymətləndirilməsi də daxildir. "PathOrchestra" adlandırılan çoxyönlü süni intellektin tətbiqi 50-yə yaxın xərçəng hadisəsində 95 faizdən çox dəqiqliklə diaqnoz qoyub.

Maraqlıdır ki, bəzi beyin metastazlarının adi üsullarla müəyyən edilməsi çətin olan erkən mərhələlərdə süni intellektin köməyi yerinə düşür. Niderland Xərçəng İnstitutu ilə "Robovision Healthcare" şirkətinin birgə apardığı tədqiqat göstərib ki, süni intellekt beyin MRT skanlarında indiyədək asanlıqla nəzərdən qaça bilən kiçik şişləri yüksək dəqiqliklə müəyyən edə bilir.

Bu inkişafın əhəmiyyətini artıran amillərdən biri də şişlərin tezliyidir. Beyin metastazları mərkəzi sinir sistemində ən geniş yayılmış şiş növüdür. Bu cür şişlər böyüklərdə xərçəng xəstələrinin təxminən 17 faizində rast gəlinir. Lakin onların erkən mərhələdə aşkarlanması olduqca çətindir. Şişlər adətən 3 millimetrdən kiçik ölçüdə yaranır və sürətlə böyüyə bilir. Tək bir MRT skanı zamanı əldə edilən yüzlərlə şəkil arasında bu ölçüdə törəməni insan gözü ilə fərqləndirmək həmişə mümkün olmur. Lakin "Radiology" jurnalında dərc edilən tədqiqata görə, süni intellektlə bu çətinlik aradan qaldırılmaq üzrədir. "Robovision Healthcare" tərəfindən hazırlanan "BrainMets.ai" adlı süni intellekt sistemi MRT şəkillərində kiçik leziyaları belə yüksək dəqiqliklə "tanıya bilir". Sistemin ümumi həssaslığı 97,4 faiz təşkil edir. Uğur nisbəti şişlərin ölçüsündən asılı olaraq dəyişsə də, nəticələr, ümumiyyətlə, olduqca təsirlidir. Bu göstəricilər adi üsullarla asanlıqla nəzərdən qaça bilən kiçik ölçülü metastazların belə indi daha erkən mərhələdə müəyyən edilə biləcəyini sübut edir.

Statistik məlumatlar da yeni texnologiyaların effektivliyini sübut edir. Araşdırmalara görə, süni intellektlə dəstəklənən robot yardımlı əməliyyatlardan sonra xəstələrin stasionarda qalma müddəti orta hesabla 21 faiz azalır. Bu isə xəstə üçün daha qısa bərpa dövrü, həm də səhiyyə sistemi üçün daha az xərc deməkdir. Ortopediya sahəsində aparılan bir tədqiqatda 379 nəfər üzərində həyata keçirilən əməliyyatların nəticələri göstərib ki, süni intellektin tətbiqi ilə komplikasiya (baş verməsi qabaqcadan müəyyən edilə bilməyən fizioloji ağırlaşmalar-red.) halları ənənəvi üsullara nisbətən 5 dəfə az müşahidə olunub.

Hazırda tibb texnologiyalarında "Da Vinci" və "Heartlander" kimi robotlar xüsusi yer tutur. "Da Vinci" robotu artıq dünyanın bir çox klinikasında mürəkkəb cərrahi əməliyyatların icrasında istifadə olunur. Bu sistem həkimə yüksək dəqiqlik, sabitlik və nəzarət imkanı verir. "Heartlander" isə miniatür ölçülərinə baxmayaraq, ürək səthində və sinə boşluğunda incə müdaxilələrin həyata keçirilməsində əvəzsizdir. Bu tip texnologiyalar insanın əli ilə mümkün olmayan incə və dəqiq müdaxilələri asanlıqla həyata keçirə bilir.

Tibb sahəsində tətbiq olunan texnologiyaların maliyyə dəyəri də diqqətəlayiqdir. Hazırda təxminən 40 milyard dollar dəyərində qiymətləndirilən bu sektor yalnız gəlir gətirən sahə deyil, eyni zamanda səhiyyə xidmətlərinin davamlı və qənaətli inkişafına yönəlmiş strateji bir addımdır. Sonda qeyd etmək olar ki, süni intellekt və robot texnologiyalarının səhiyyəyə inteqrasiyası sadəcə texnoloji yenilik deyil, bu, səhiyyənin mahiyyətcə yenidən formalaşması deməkdir. Bu texnologiyalar təkcə həkimlərin işini asanlaşdırmır, həm də pasiyentlərin həyat keyfiyyətini yüksəldir, səhiyyənin daha ədalətli və effektiv olmasına zəmin yaradır. Gələcəyin səhiyyəsi artıq bu gündən başlayır.

*Hazırladı:*
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## İDMAN

## Boksçumuz erməni rəqibinə qalib gəlib

**Azərbaycan boksçusu Əminə Tağı (50 kq) Serbiyanın Novi Pazar şəhərində yeniyetmələr arasında keçirilən Avropa çempionatının finalında ermənistanlı Amest Afrikyanı məğlub edərək qızıl medala yiyələnib.**



Əminə rəqibinə 4:1 (29:28, 29:28, 29:28, 27:30, 30:27) hesabı ilə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və şərəfinə Azərbaycan himni səsləndirilib.

Digər qız boksçularımızdan Cəmilə Muradlı (52 kq), Fidan Bəkərova (63 kq), Səma Abbasova (66 kq) gümüş, Aylin Nəzərova (46 kq), Gülər Hüseynova (48 kq) və Zəhra Məmmədova isə (54 kq) bürünc medal qazanıblar. Beləliklə, qızlardan ibarət millimiz Avropa birinciliyini 1 qızıl, 3 gümüş və 3 bürünc medalla başa vurub.

Yarışın 6-cı günündə Səfdər Məmmədzadə (+80 kq) adını finala yazdırıb. O, yarımfinalda belaruslu Kirill Jukovskiyə tam üstünlüklə qalib gəlib. Məmmədzadə həlledici görüşdə rusiyalı Boqdan Smolkinlə döyüşəcək.

Qeyd edək ki, oğlan boksçularımızdan daha öncə Qardaş Rəhimov (46 kq), Məhəmməd Rəsulov (50 kq), Raul Heydərli (54 kq), Şahin Aslanov (60 kq) və Haqverdi Həsənov (63 kq) bürünc medala sahib olublar.

## VTB çimərlik futbolu çempionudur



**Dünən Çimərlik futbolu üzrə Azərbaycan Superliqasının qalibi müəyyənləşib. Son turda "Marafon" üzərində 7:4 hesablı qələbə qazanan VTB ölkə çempionu olub. "Marafon" isə yarışı ikinci pillədə başa vurub. "Dirçəliş"i 5:4 hesabı ilə məğlub edən "Çinar Zəngilan" bürünc mükafat əldə edib.**

13 qola imza atan Elgün Abbaslı ("Çinar Zəngilan") turnirin ən məhsuldar oyunçusu üçün ayrılan mükafata yiyələnib. Ən yaxşı qapıçı Elçin Qasımov (VTB), ən yaxşı oyunçu isə Orxan Məmmədov ("Marafon") seçilib.

Qeyd edək ki, Superliqanın qalibi Azərbaycanı "Euro Winners Cup"ın əsas mərhələsində təmsil edəcək. Gümüş mükafatçı "Marafon" isə bu yarışın pley-offu sayılan "Euro Challengers"ə qatılacaq.

## Fil Dişi Sahilindən "Qəbələ" klubuna



**"Qəbələ"nin yeni transferi, Fil Dişi Sahilindən olan futbolçu Adriel Ba Loua Azərbaycanı çox bəyənib: "Azərbaycanın çox yaxşı insanları var. Komandamızda da hələlik hər şey qaydasındadır. Əvvəllər Azərbaycan haqqında məlumatım yox idi. "Qəbələ"dən dəvət gəldikdən sonra araşdırdım, hər şeyi götür-qoy etdim və sonda qərarımı verdim. Burada olmaq çox xoşdur. Azərbaycan və Qəbələ gözəldir".**

Qeyd edək ki, klub Adriel Ba Loua ilə 1 illik müqavilə imzalayıb.

***M.HACIXANLI***
***XQ***

## Yer planetinin "əkiz qardaşı"

**NASA planetimizdən 154 işıq ili uzaqlıqda təkrarlanan siqnalı yanıb-sönən kimi görünən sirli "super-Yer" planeti kəşf edib. BBC xəbər verir ki, "TOI-1846 b" adlandırılan planetin ölçüsü Yerdən, demək olar ki, ikiqat, kütləsi isə 4 dəfə böyükdür. O, hər 4 gündən bir kiçik, soyuq qırmızı cırtdan ulduzun ətrafında dövr edir. Planet ulduzun işığında qəribə, təkrarlanan enişlərə səbəb olur ki, bu da ilk dəfə NASA-nın TESS kosmik teleskopu hər ilin mart ayında qaralma modelini müşahidə edən zaman elm adamlarının diqqətini çəkən bir siqnaldır.**




İndi həm kosmosda, həm də yerüstü teleskoplardan istifadə edən bir qrup astronom tərəfindən təsdiqlənən "TOI-1846 b" Yer kimi kiçik, qayalı planetlər və Neptun kimi daha böyük, qazla zəngin planetlər arasında nadir bir kateqoriya olan "radius boşluğu" adlandırılan kateqoriyaya daxil edilir.

Planetin səthinin təxmini istiliyinin 315 dərəcə Selsi olmasına baxmayaraq, tədqiqatçılar onun hələ də su saxlaya biləcəyini deyirlər. Bu göy cisminin möhkəm qayalı nüvəyə, sıx buz təbəqəsinə və potensial olaraq hətta dayaz okeana və ya nazik atmosferə malik olduğuna inanılır. Ev sahibi ulduz isə "qırmızı cırtdan"dır, onun ölçüsü və kütləsi Günəşdən təxminən 40 faiz kiçikdir.

NASA alimləri ümid edirlər ki, "James Webb" kosmik teleskopu tezliklə infraqırmızı işıqdan istifadə edərək atmosferini öyrənmək üçün "TOI-1846 b"ni hədəf alacaq. Əlverişli şəraitdə bu teleskop su buxarı, metan, karbon qazı və ya digər qazların əlamətlərini aşkar edə biləcək.

***XQ***

## Çimərliklərdə su 28 dərəcə olacaq

**Bu gün ölkəmizdəki çimərliklərdə şimal-qərb küləyi günün ikinci yarısında arabir güclənəcək. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**



Bildirilib ki, dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27, cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28 dərəcə isti olacaq.

***XQ***

## Hava

## Əsasən yağmursuz və günəşli hava...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi günün ikinci yarısında arabir güclənəcək.**



Havanın temperaturu gecə 21-26° isti, gündüz 33-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunu, nisbi rütubət isə gecə 60-70 faiz, gündüz 35-40 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 22-27° isti, gündüz 36-40° isti, dağlarda gecə 15-20° isti, gündüz 28-32° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kollektivi stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyevaya anası

**TATYANA MİXAYLOVNANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3232**
**SİFARİŞ 1643**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**